

Milli azadlıqdan
şirin nemət yoxdur!

# Zəfər ayının 6-cı günü...

**Vətən müharibəsinin 41-ci günü**

**06.11.2020**



Bax səh. 2


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

6 noyabr
2024-cü il,
çərşənbə № 205
(6791)
Qiymətі
60 qəpik


# Dərin hörmətin və yüksək nüfuzun rəmzi!



## 1 nömrəli "Çingiz Aytmatov" ordeni Azərbaycan Prezidentinə təqdim edilib

Bax səh. 2

## "Dünya dinləri yaşıl planet uğrunda"

Bax səh. 3

## Türk ailəsi yeni inkişaf mərhələsində



Bax səh. 4

## Heydər Əliyev Fondunun Vatikanla genişlənən əlaqələri

Bax səh. 4

## Keçmişimiz və bu günümüzlə bağlı olan ideologiya...

Bax səh. 5

## Bələdiyyələr yenidən qurulur...

Bax səh. 5

## Terror qrupları rəsmiləşdirilir...

Bax səh. 6

## "Koreya düyünü" aktuallaşır...

Bax səh. 6

## Moldova Aİ "yolunda"...

**Kişineunu inteqrasiya prosesində nələr gözləyir?**



Bax səh. 7



## Fransa tarixinin ən pis dönəmi

Bax səh. 7

# İlham Əliyev Qırğızıstandadır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 5-də Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşündə iştirak etmək üçün Qırğız Respublikasına səfərə gəlib.**



# Dərin hörmətin və yüksək nüfuzun rəmzi!

## 1 nömrəli "Çingiz Aytmatov" ordeni Azərbaycan Prezidentinə təqdim edilib

Noyabrın 5-də Bişkekdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Çingiz Aytmatov" ordeni təqdim edilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görkəmli qırğız yazıçısı Çingiz Aytmatovun ev muzeyinə gəldi.

Prezident İlham Əliyev əvvəlcə ev muzeyi ilə tanış oldu.

Məlumat verildi ki, muzey Bişkek yaxınlığındakı "Ala-Arça" dövlət iqamətgahında - 1986-cı ildən yazıçının ömrünün son 20 ilini yaşadığı evdə yerləşir. Qırğız xalqının böyük oğlunun vəfatından sonra həyat yoldaşı Mariya Aytmatova və oğlu Eldar ailəsi ilə burada yaşayırlar.

Ev muzeyi Çingiz Aytmatovun həyat yoldaşı Mariya Urmatovna, övladları Eldar və Şirinin təşəbbüsü ilə 2014-cü il dekabrın 12-də açılıb.

Çingiz Aytmatovun kiçik oğlu Eldar yazıçının hələ sağlığında evdə hökm sürmüş bütün ab-havanı və şəraiti ən xırda detala qədər qoruyub saxlamağa çalışıb. Ev muzeyində yazıçının şəxsi əşyaları, əlyazmaları və çoxsaylı mükafatları qorunub saxlanılır. İkinci mərtəbədə onun kabineti, yataq otağı və kitabxana yerləşir.

Evin ikinci hissəsində Eldar Aytmatov və ailəsi yaşayır. Mədəni-maarif fəaliyyəti ilə məşğul olan Çingiz Aytmatov Beynəlxalq Fondu da burada yerləşir. Fond 2000-ci ildə yazıçının özü tərəfindən təsis edilib, indi onun övladları tərəfindən idarə olunur.

Dövlətimizin başçısı ev muzeyinin xatirə kitabına ürək sözlərini yazdı.

Qeyd edək ki, dünyaşöhrətli yazıçının zəngin bədii irsinə Azərbaycanda da hər zaman böyük maraq olub. Ulu Öndər Heydər Əliyev Çingiz Aytmatovu "Türk dünyasının fəxri" adlandırıb. Prezident İlham Əliyev 2008-ci ildə bir nömrəli "Dostluq" ordenini Çingiz Aytmatova təqdim edib. Azərbaycan və Qırğızıstan prezidentlərinin iştirakı ilə bu il aprelin 24-də Bakı şəhərində Çingiz Aytmatovun abidəsi açılıb.

Sonra Prezident İlham Əliyevə "Çingiz Aytmatov" ordeninin təqdim edilməsi mərasimi oldu.

**Çingiz Aytmatov Fondunun prezidenti Eldar Aytmatov çıxış edərək dedi:**

-Hörmətli cənab Prezident, hörmətli qonaqlar.

Bu gün mən "Çingiz Aytmatov" ordenini Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim etmək şərəfinə nail oluram. Bu mükafat dərin hörmətin və yüksək nüfuzun rəmzidir. Bu, humanist dəyərlərin möhkəmləndirilməsinə, mədəni dialoqun dəstəklənməsinə və böyük yazıçımızın yaradıcı irsinin qorunub saxlanmasına Sizin verdiyiniz müstəsna töhfəyə görə minnətdarlıq əlamətidir.

Çingiz Aytmatov yalnız yazıçı deyil, həm də xalqlar arasında sülh, qarşılıqlı anlaşma və birlik ideyalarını təbliğ edən əsl körpü olub. Cənab Prezident, bu gün biz bu prinsiplərin Sizin fəaliyyətinizdə necə təcəssüm etdiyini görürük. Sizin rəhbərliyinizlə Azərbaycan mədəniyyətlərarası mübadilənin və əməkdaşlığın təşəbbüskarı kimi çıxış edir, digər ölkələrlə dinc və yaradıcı münasibətləri təşviq edir.

İcazə verin, xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsində və Çingiz Torekuloviçin həyatını həsr etdiyi dəyərlərin təbliğində yorulmaz səylərinizə görə Çingiz Aytmatov Beynəlxalq Fondu adından Sizə dərin təşəkkürümü bildirim. İnanırıq ki, Sizin səyləriniz sayəsində Aytmatovun adı bundan sonra da xalqları birləşdirəcək, mədəni tərəqqi və humanizm rəmzi olacaqdır.

Dərin hörmət və qürur hissi ilə Sizə müasir dünyada və ümumi mədəni irsimizin qorunub saxlanmasında oynadığınız rola verilən yüksək qiymətin əlaməti olan "Çingiz Aytmatov" ordenini təqdim edirəm. Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Eldar Aytmatov:** İcazənizlə, ordeni təqdim edim.

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

Dövlətimizin başçısına "Çingiz Aytmatov" ordeni təqdim edildi.

Eldar Aytmatov: Qeyd etmək istəyirəm ki, bu bir nömrəli orden Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə təqdim olunur və həmçinin ilk dəfə Azərbaycanın bir nömrəli "Dostluq" ordeni Azərbaycan Prezidenti tərəfindən Çingiz Aytmatova təqdim edilib. Sağ olun.

**Prezident İlham Əliyev çıxış edərək dedi:**

-Sağ olun. Bu yüksək mükafata görə çox sağ olun. Fəaliyyətimə verilən bu qiymətə görə Çingiz Aytmatov Fonduna, həmçinin onun ailə üzvlərinə və yaxınlarına minnətdarlığımı bildirmək istəyirəm. Həm də bu ordeni onun yaşadığı, işlədiyi, yazıb-yaratdığı, ruhunun indi də dolaşdığı evdə almaq mənim üçün böyük şərəfdir. Mən buraya gələrkən təbii ki, Çingiz Torekuloviçin evinin necə olması barədə fikirləşirdim və məhz orada rahat, isti, yaxşı, yaxınlarının, əzizlərinin əhatəsində olduğu, yaşadığı, işlədiyi və böyük sənət yaratdığı evi gördüm. Onun yaradıcılığı bütün dünyaya məxsusdur. Qeyd etdiyiniz kimi, onun kitabları 185 dilə, demək olar ki, bütün dillərə tərcümə olunub. Bu gün sizdən öyrəndim ki, onun kitablarının yenidən, xüsusən, yeni tərcümədə nəşrinə tələbatın olması onu göstərir ki, Çingiz Aytmatovun həyata, insanlara, təbiətə, öz xalqına münasibətdə sözünə, fikirlərinə ehtiyac var. Sözsüz ki, onun yaradıcılığı bütün mümkün sədləri ötüb keçib və əbədi olaraq oxucuları sevindirəcək, düşünməyə, yəqin ki, bir çox məsələləri yenidən başa düşməyə sövq edəcək. Çünki onun yaradıcılığını çox sevən və bir çox əsərlərini oxuyan insan kimi deyə bilərəm ki, məhz onlar səni düşünməyə, hətta cəmiyyətə, dünyaya, təbiətə, öz fəaliyyətinə nəzər salmağa vadar edir. Atam Heydər Əliyevin dediyi kimi, Çingiz Aytmatov təkcə qırğız xalqının deyil, həm də bütün Türk dünyasının fəxridir. Artıq dediyim kimi, o, dünyaşöhrətli yazıçı, ictimai xadim idi və onun əsərləri müxtəlif mədəniyyətlərə məxsus, müxtəlif qitələrdən olan insanlar tərəfindən başa düşülürdü. Amma, eyni zamanda, onun əsərlərini oxuduqda görürsən ki, Çingiz Aytmatov məhz öz ölkəsinin, öz xalqının problemlərinə dərindən nüfuz edirdi, öz xalqının nümayəndələrini təsvir edirdi. Yəni, o, sırf milli yazıçı idi, eyni zamanda, bütün dünya tərəfindən başa düşülürdü. Zənnimcə, onun mütəfəkkir kimi nadirliyinin sirri də bundadır.

Çingiz Aytmatova Azərbaycanda olan münasibətə gəldikdə, zənnimcə, bu barədə danışmağıma ehtiyac yoxdur. Onu bir insan kimi sevirdilər, onun çoxlu dostu var idi, bir sıra fotoşəkillər onun Azərbaycanın mədəniyyət xadimləri ilə görüşlərini əks etdirir. Həmçinin Heydər Əliyev və Çingiz Aytmatov bir-birinə böyük hörmətlə yanaşırdılar, onların çoxlu görüşləri olmuşdur və mənim atamdan gətirdiyim sitat məhz onun Çingiz Torekuloviçə bəslədiyi hisslərin təzahürüdür.

Bizim görüşümüzü xatırlayıram, yeri gəlmişkən, 2008-ci ildə görüşümüzü əks etdirən fotoşəkil digərləri ilə birlikdə burada nümayiş etdirilir. Siz də qeyd etdiniz ki, ilk "Dostluq" ordeni Çingiz Aytmatova təqdim olunub. Həmin vaxt bu orden mənim tərəfimdən, mənim təşəbbüsümlə yenicə təsis olunmuşdu. Açığını desək, düşünürdüm ki, hər halda rəqəmlərdə bir rəmzilik var, fikirləşirdim ki, bu bir nömrəli ordeni kimə təqdim edək. Sözsüz ki, ilk ağlıma gələn o oldu ki, onu Türk dünyasının hər hansı bir nümayəndəsinə verək. Sonradan sanki fikirlər ard-arda gəldi və qərar verildi. Bəlkə də bədahətən oldu, amma digər tərəfdən, bədahətən verilən bütün qərarlar bundan əvvəlki həyatda, öncəki zamanda sənin tərəfindən dərindən düşünülüb. Ona görə də bu, tamamilə şüurlu, yeganə düzgün qərar idi. O da bizim üçün xüsusi qürur mənbəyidir ki, bir nömrəli "Dostluq" ordeni Çingiz Torekuloviçə təqdim edilib. Mən bu il Bakıda onun abidəsinin açılışında çıxış etdim. Çingiz Aytmatovun heykəli mərkəzi küçələrdən birində ucaldılıb. Mən dedim ki, onun tezliklə aramızda olmayacağını güman etmirdik. Çünki o, Bakıya yaxşı əhvali-ruhiyyədə gəlmişdi, biz onunla çoxlu söhbət etdik, o, gələcək planlarından danışırdı, çox yaxşı görünürdü, mən buna ürəkdən sevindim. Amma bir neçə aydan sonra o, vəfat etdi. Əlbəttə, bu, kədər hissi doğurur, çünki o, hələ yaşaya, öz yaxınlarını sevindirə, onları qayğısı və şəfqəti ilə əhatə edə, həmçinin məhz bu gün aktual olan xeyli sayda əsər yarada bilərdi. Çünki onun bu dünyadan köçdüyü vaxtdan bəri həm bizim regionumuzda, həm də dünyada çoxlu hadisələr baş verib, zənnimcə, onun sözü çox mühüm olardı, təkcə bizim regionumuz üçün deyil, həm də ümumilikdə dünya siyasəti üçün. Çünki o, yaradıcılıq fəaliyyəti ilə yanaşı, həmçinin çox nüfuzlu ictimai xadim idi.

Məni Çingiz Torekuloviçin ocağına dəvət etdiyiniz, bu mükafata layiq gördüyünüz üçün sizə bir daha təşəkkür etmək istəyirəm. Sizi yaxın vaxtlarda Bakıya dəvət etmək, ailənizlə, Çingiz Torekuloviçin balaca davamçıları ilə birlikdə qonağımız olmağınızı istəyirəm. Onun abidəsini ziyarət etsinlər və onu tanıyanlarla, sevənlərlə ünsiyyətdə olsunlar. Bir daha təşəkkür edirəm.

**Eldar Aytmatov:** Çox sağ olun.

***

Daha sonra Prezident İlham Əliyev və Çingiz Aytmatovun ailə üzvləri birgə çay süfrəsi arxasında söhbət etdilər.

Sonda qarşılıqlı xatirə hədiyyələri təqdim olundu.

















# Zəfər ayının 6-cı günü...

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.***

**Vətən müharibəsinin 41-ci günü**
**06.11.2020**

• Ordumuz Ağdam və Ağdərə istiqamətlərində düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti də daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAZ" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib. Ermənistan ordusunun bölmələri cəbhənin Qubadlı istiqamətində mövqeləri ataraq qaçıb.

• Döyüş əməliyyatları müxtəlif intensivliklə əsasən Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib. Cəbhənin bəzi yerlərində şəxsi heyətini və hərbi texnikasını itirən düşmən geri çəkilməyə məcbur olub.

• Düşmənin minaatanlarının atış nöqtələrinə və döyüş mövqelərinə zərbələr endirilib.

• Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayıb.

• Ermənistan ordusunun təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb, 3064 ev, 100 yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• FHN-in yanğınsöndürmə qüvvələri işğaldan azad edilmiş ərazidə ilk yanğınsöndürmə əməliyyatı həyata keçirib.



# “Dünya dinləri yaşıl planet uğrunda”

## Bakıda Dünya dini liderlərinin qlobal Bakı Sammiti keçirilib

Noyabrın 5-də Prezident İlham Əliyevin təşəbbüsü və himayədarlığı ilə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Beynəlxalq Müsəlman Ağsaqqallar Şurası, Qafqaz Müsəlmanları İdarəsi və BMT-nin Ətraf Mühit Proqramı tərəfindən “Dünya dinləri yaşıl planet uğrunda” mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammiti işə başlayıb. İkigünlük sammitdə 30-a yaxın dünya və ənənəvi dinlərin liderləri, nüfuzlu dini mərkəzlərin başçıları - patriarxlar, Vatikan və Əl-Əzhər rəsmiləri, müxtəlif qitələri, konfessiyaları və dünya miqyasında tanınmış görkəmli din və ictimaiyyət xadimləri, ümumilikdə 55 ölkəni və 30 beynəlxalq təşkilatı təmsil edən dövlət, elm və din xadimləri, həmçinin media subyektlərinin nümayəndələri iştirak edirlər.

### Prezident İlham Əliyev sammit iştirakçılarına müraciət edib

Tədbirdə əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin qlobal Bakı Sammitinin iştirakçılarına müraciəti oxunub. Müraciəti Azərbaycanın Baş naziri Əli Əsədov səsləndirib. Dövlət başçısının müraciətində bildirilir ki, bu gün dünyamızın üzləşdiyi iqlim dəyişmələri, atmosferin və ətraf mühitin çirklənməsi, quraqlıq və səhralaşma, biomüxtəlifliyin itirilməsi, su qıtlığı, ərzaq çatışmazlığı və bu kimi digər qlobal ekoloji problemlər bəşəriyyətin mövcudluğu və gələcəyi üçün ciddi təhdidlər yaratmaqdadır: “İqlim böhranı və ekoloji təhlükəsizlik məsələləri dünya dövlətlərinin birgə əməkdaşlığını, beynəlxalq ictimaiyyətin bütün səviyyələrdə səylərinin birləşdirilməsini zəruri edir. COP tədbirlərində inklüzivlik prinsiplərinə uyğun olaraq nüfuzlu dini liderlərin bir araya gəlməsini, planetimizin taleyi naminə onların narahatlığını və ümumi işə töhfə vermək əzmini yüksək qiymətləndirirəm. Müxtəlif etiqad və inancların zəngin mənəvi potensialı iqlim dəyişmələrinin yaratdığı ekzistensial problemlərin həllinə təkan vermək imkanına malikdir. Dünya din xadimləri bu çağırışlarla mübarizədə böyük rol oynaya bilərlər”.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, COP29-un Azərbaycanda keçirilməsinə yekdilliklə qərar verilməsi ölkəmizin beynəlxalq nüfuzuna yüksək etimadın göstəricisidir və bu, heç də təsadüfi deyil. Azərbaycan ekoloji problemlərlə bağlı bir çox konvensiya və sazişlərə qoşulub, müxtəlif ölkələrlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaradıb, bu sahədə çoxşaxəli fəaliyyət proqramları qəbul edib. Ölkəmizdə ətraf mühitin qorunmasını nəzərdə tutan zəruri qanunvericilik sistemi formalaşdırılaraq səmərəli institusional mexanizmlər və investisiya mühiti yaradılıb. Hazırda “yaşıl enerji” layihələrinin həyata keçirilməsi, alternativ və bərpaolunan enerji mənbələrindən istifadə, ətraf mühitə mənfi təsirlərin qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində mühüm addımlar atılmaqdadır. Azərbaycanda 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan olunub.

Müraciətdə diqqətə çatdırılıb ki, iqlim dəyişmələri və ekoloji problemlər ilə hamılıqla mübarizə aparmaq üçün dünyada beynəlxalq təhlükəsizliyin, sülh və əmin-amanlığın təmin edilməsi vacib amillərdən biridir: “Ölkəmiz yaxın tarixi keçmişində əsassız ərazi iddialarına məruz qalaraq ədalətsiz müharibəyə cəlb edilib, bu qanlı savaşın ağır fəsadlarını yaşamalı olub. Siz Azərbaycanın əzəli torpağı olan Qarabağa səfəriniz zamanı Ermənistan tərəfindən 30 illik işğal dövründə törədilmiş ekosid, kultursid və urbisid kimi cinayətkar əməllərin acı nəticələrini əyani şəkildə görmək imkanı qazanacaq, ölkəmizin bölgədə ekoloji tarazlığı bərpa etmək istiqamətində yaşıl iqtisadiyyata, bərpaolunan enerjiyə əsaslanan genişmiqyaslı yenidənqurma işləri ilə bilavasitə tanış ola biləcəksiniz. Bəşəri problemlərin müzakirə olunduğu Dini Liderlərin Qlobal sammiti kimi nüfuzlu tədbirlərin Azərbaycanda keçirilməsi artıq ənənə halını almışdır. İnanıram ki, bu Sammit səmərəli fəaliyyəti ilə ölkəmizin sivilizasiyalararası dialoq məkanı statusunu daha da möhkəmləndirəcək, mədəniyyətlərarası əməkdaşlığa dair “Bakı Prosesi”nə sanballı töhfə verəcək, yaşıl dünya naminə həmrəyliyiniz, müdrik təklif və tövsiyələriniz ümumi hədəflərə çatmağımıza dəstək olacaq”.

Müraciətdə dövlətimizin başçısı əminliyini ifadə edib ki, taleyüklü problemlərə həsr olunmuş sammit konstruktiv fikir mübadilələri şəraitində keçəcək, COP çərçivəsində dinlərarası əməkdaşlıq platformasının təsisatlandırılması imkanı müzakirə ediləcək. Bunun üçün tolerantlıq və multikulturalizm diyarı Azərbaycan ən uyğun məkandır.

### BMT-nin Baş katibi: Dini liderlərin fəaliyyəti iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin təşviqi üçün vacibdir

Daha sonra BMT-nin Baş katibi Antonio Quterreşin sammit iştirakçılarına videomüraciəti olub. Baş katib dini liderlərin fəaliyyətinin iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin təşviqi və iqlim ədalətinin əldə edilməsi üçün vacib olduğunu bildirib. Onun sözlərinə görə, ekstremal temperaturlar, yanğınlar, quraqlıq və genişmiqyaslı daşqınlar dünya ölkələri üçün ciddi problemlər yaradır: “Ölkələrin qlobal istiləşməni 1,5 dərəcəyə qədər məhdudlaşdırmaq məqsədinə uyğun Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrin (NDCs) hazırlamasına yönəlmiş tədbirlər əhəmiyyətlidir. Bütün ölkələrin dəyişən planetə uyğunlaşmasına, dayanıqlı və bərpa olunan gələcəyə keçidə dair resurslara malik olmasını təmin etmək üçün ədalət vacibdir. Bura inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyinin əhəmiyyətli dərəcədə artırılması və təbii fəlakətlərdən ən çox zərər çəkən ölkələrə kömək etmək üçün yaxşı maliyyələşdirilən itki və zərərə cavab verən fondun yaradılması daxildir”.



### Allahşükür Paşazadə: Yaşadığımız humanitar böhranlar...

Çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə sammitin əhəmiyyətindən bəhs edib. O bildirib ki, qloballaşan dünyada meydana gətirilən yeni təhlükəli meyillər - əsrlərlə insan təfəkküründə, mənəviyyatında yer almış əxlaqi-etik meyarların təhrif olunması, dini-mədəni dəyərlərə təcavüz mütərəqqi dünya ictimaiyyətini narahat edir: “Din xadimi kimi deyə bilərəm ki, bəşəriyyətin gələcəyinə təhlükə yaradan problemlərin, o cümlədən, qlobal istiləşmə və digər iqlim problemlərinin əsas mənbəyi ilahi düzənin pozulması, insanların ilahi qanunlardan, mənəvi-əxlaqi köklərindən ayrı salınmasıdır. Yaşadığımız humanitar böhranlar çağdaş dünyada törədilən ekoloji və müharibə cinayətləri, ekosistemin pozulması, münbit torpaqların və su mənbələrinin yararsız hala salınması səbəbindən baş verir”. Onun sözlərinə görə, sadalanan fəsadların aradan qaldırılması üçün əsrlərlə formalaşmış mədəni-mənəvi davranış qaydalarına bütün sahələrdə - siyasətdə, iqtisadiyyatda, dövlətlərarası münasibətlərdə əməl olunması vacibdir. Təbii ki, yaşıl iqtisadiyyat modeli bəşəriyyətə daha harmonik inkişaf imkanı bəxş edir.

“Bu gün insan həyatına təhlükələrin, beynəlxalq sabitliyə təhdidlərin artdığı müasir dövrdə ətraf mühit və iqlim dəyişikliyi ilə bağlı taleyüklü məsələlərin həlli istiqamətində siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılması və qlobal dialoqun gücləndirilməsi fövqəladə dərəcədə vacibdir. Bu zərurəti dəyərləndirən COP29 tədbirində problemin siyasi, iqtisadi səbəbləri dərindən tədqiq ediləcək. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili”nin elan edilməsi dəyərli qlobal təşəbbüsdür və planetin gələcəyi naminə həmrəyliyə xidmət edir”, - deyə şeyxülislam qeyd edib.

### Muxtar Babayev: Azərbaycanın COP29 Sədrliyi tərəfindən 14 əsas təşəbbüs irəli sürülüb

Çıxış edən COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, bu sammit, din və adətləri bir araya gətirməklə insanların birlik və vəhdət içində yaşamasına nail olmaq və planetimizin qorunmasına töhfə vermək baxımından böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, COP29 Fəaliyyət Gündəliyi, resursların inkişaf etməkdə olan ölkələr üçün daha əlçatan olmasını təmin etməyə yönəlib. Azərbaycanın COP29 Sədrliyi tərəfindən 14 əsas təşəbbüs irəli sürülüb. Bizim məqsədimiz yalnız milli deyil, qlobal səviyyədə yeni yanaşmalar və innovativ həll yolları təklif etməkdir.

Diqqətə çatdırılıb ki, Azərbaycan irəli sürdüyü təşəbbüslərlə qlobal səviyyədə yaşıl iqtisadiyyata keçidini dəstəkləməkdə öz liderliyini davam etdirəcək: “Ölkəmizin təşəbbüsü ilə yaradılmış İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu dövlət və özəl sektorun iqlimə uyğunlaşma, onun mənfi təsirlərinin azaldılması və tədqiqat sahələrində investisiyalarını təşviq edəcək. Bu fond inkişaf etməkdə olan ölkələrdə baş verən təbii fəlakətlərin nəticələrini tez bir zamanda aradan qaldırmaq üçün maliyyələşdirmə imkanları yaradır”. Onun sözlərinə görə, iqlim dəyişikliyi, münaqişələr və həssas icmalar arasındakı qarşılıqlı təsir həm planetimizin təhlükəsizliyini, həm də cəmiyyətin harmoniyasını ciddi şəkildə təhdid edir. Ən həssas icmaları qorumaq üçün birgə həll yolları müəyyən edilməlidir. Bu səbəbdən Azərbaycan iqlim dəyişikliyinin təsirlərindən ən çox məruz qalan icmalarla dialoqu genişləndirmək məqsədilə “COP29 - İqlim və Sülh” Təşəbbüsünü irəli sürüb. Bundan əlavə, COP29 Sədrliyi tərəfindən irəli sürülən İqlim Fəaliyyəti naminə Su təşəbbüsü iqlim dəyişikliyinin su hövzələrinə təsirlərini azaltmaq üçün inteqrasiya olunmuş yanaşmaların qəbulunu və milli iqlim siyasətində adaptasiya tədbirlərinin gücləndirilməsini hədəfləyir. Eyni zamanda, enerji saxlanılması və şəbəkələrinin genişləndirilməsi təşəbbüsü, 2030-cu ilə qədər qlobal enerji saxlama qabiliyyətini artıraraq, dayanıqlı enerjiyə əlçatanlığı və davamlı inkişaf imkanlarını genişləndirməyə töhfə verəcək.

### Ramin Məmmədov: Bakı sammitinin verəcəyi mesaj gələcək təhlükələri dəf etmək üçün böyük əhəmiyyətə malik olacaq

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov isə bildirib ki, dini liderlərin qlobal Bakı sammitinin dünyaya verəcəyi mesaj gələcək təhlükələri dəf etmək üçün son dərəcə mühüm əhəmiyyətə malik olacaq. Bu mesajın bir hissəsi beynəlxalq münasibətlər sisteminin subyektlərinə çağırış ola bilər. Çünki qlobal istiləşmənin fəsadlarını azaltmaq üçün dövlətlərin və beynəlxalq təşkilatların daha gərgin fəaliyyət göstərməsinə ehtiyac var. Onun fikrincə, dini liderlərin sammiti inanclı insanlara Tanrının yaratdıqlarını qorumağın vacibliyini bir daha xatırladacaq: “Harada yaşamağımızdan, dini əqidəmizdən asılı olmayaraq özümüzün və övladlarımızın gələcəyini qorumaq üçün hər kəsi qlobal iqlim dəyişiklikləri ilə mübarizədə iştiraka dəvət edəcək. Dini liderlər həm də dini, etnik və sosial mənsubiyyətinə fərq qoymadan insanlara çağırış edəcək. Biz həqiqətən real təhlükənin astanasındayıq. Məsuliyyəti bölüşmək - qlobal çağırışların öhdəsindən gəlmək üçün ən yaxşı mübarizə üsulumuz, ən effektiv alətimiz ola bilər”.

R.Məmmədov deyib ki, Azərbaycan 30 il ərzində ədalətsizliyin qurbanı olub. Ekosidə məruz qalan böyük bir ərazisini işğaldan azad etməklə fəlakətdən qurtarıb. İndi bu torpaqlarda “ağıllı şəhərlər”, “ağıllı kəndlər” inşa edilir, yaşıl enerji zonası yaradılır. Biz Qarabağı işğaldan azad etməklə həm də qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə töhfə veririk. Çünki qlobal istiləşmənin nələrə səbəb ola biləcəyinin fərqindəyik.

### Muhəmməd Əbdülsəlam Abdullətif: Bakı Sammitinin keçirilməsi olduqca əhəmiyyətli hadisədir

Çıxış edən Beynəlxalq Müsəlman Ağsaqqallar Şurasının Baş katibi Muhəmməd Əbdülsəlam Abdullətif qeyd edib ki, dünya dini liderlərinin qlobal Bakı Sammitinin keçirilməsi olduqca əhəmiyyətli hadisədir. Dini liderlərin rolundan istifadə edərək iqlim dəyişikliyinin mənfi təsirlərinin aradan qaldırılması istiqamətində mühüm addımlar atırıq. Bu da dinlərarası dialoqun yüksək səviyyədə olduğunun göstəricisidir.

O bildirib: “Biz dinlərarası dialoqun vacibliyini yüksək qiymətləndiririk. Birgə fəaliyyətimizdən faydalanaraq səsimizi daha çox eşitdirmək üçün platforma təsis etmişik. Bu cür qlobal sammitlərin təşkil olunması sözümüzün, birgə fəaliyyətimizin nəticəsidir. Ətraf mühitlə dinlər arasında birbaşa əlaqələr mövcuddur. Ona görə də qlobal təhdidlərin aradan qaldırılması istiqamətində təşəbbüslər irəli sürülməkdədir. Biz bu gün beynəlxalq öhdəliklərimizlə kifayətlənə bilmərik. Yer kürəsinin gələcəyi üçün birgə fəaliyyətlər vacib əhəmiyyət daşıyır”.

### Kardinal Klaudio Qucerotti: Hazırda dünya çox böyük fəlakətlər qarşısındadır

Vatikan Dinlərarası dialoq Dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti çıxışında deyib ki, hazırda dünya çox böyük fəlakətlər qarşısındadır. Dini inanclarımız böyük gücdür. Biz nisbiliyə, fərdiliyə inanmırıq. Bizim əməllərimiz gələcəyimizi qurmağa hesablanmalıdır. Kardinal Klaudio Qucerotti tədbirin əhəmiyyətindən bəhs edərək söyləyib ki, dini liderlərin, müxtəlif təşkilatların, dinlərin nümayəndələrinin bir araya gələrək çox vacib məsələni müzakirə etmələri çox təqdirəlayiqdir. Bu tədbir bizim planetimizi qorumağa hesablanıb: “İnsan ləyaqətlə yaşamalıdır. İnsan yer kürəsinin məhəbbət meyvəsidir. İnsan sadə kimyəvi elementlərin toplanması deyil, sevgi təcəssümüdür. Bizim gözləməyə vaxtımız yoxdur, təhlükə yaxınlaşmaqdadır. Başımıza nələrin gələcəyi bizim ümumi öhdəliklərimizi necə yerinə yetirəcəyimizdən asılıdır. Bəşəriyyətimizi qorumalıyıq, əks halda müharibələr daha da güclənəcək, məhvə doğru gedəcəyik”.

Çıxış edən İslam Məsələləri üzrə Ali Şuranın sədri Abdulrahman Mohamed Raşad AlKhalifa isə deyib ki, dünya dini liderlərinin qlobal Bakı Sammiti cəmiyyətlər arasında əlaqələrin gücləndirilməsinə, sülhün və əmin-amanlığın qorunmasına xidmət edir. Dünyanın bütün dinlərində ətraf mühitə dəyər olduqca vacib yer tutur. Xalqlar arasında əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayan Ali Şuranın sədri qeyd edib: “Təəssüf ki, bəzən dinlərdən fərqli xalqlar arasında aqressiyanın yaradılması üçün istifadə edirlər. Biz birlikdə insan dəyərlərinin qorunmasına çalışmalıyıq. Parlaq gələcəyə doğru daha çox addımlar atmaq lazımdır. Ətraf mühitin qorunması İslam dinində olduqca vacib amildir. Bütün bunlar, həmçinin insanların rifahının yaxşılaşmasına zəmin yaradacaq”.

Əl-Əzhər Şeyxinin müavini, Əl-Əzhərin Böyük Ülamalar Heyətinin üzvü Mohammed Abdelrahman Muhamed EIDveny çıxışında deyib ki, COP29-un Azərbaycanda keçirilməsi olduqca önəmlidir. “Dünya dinləri yaşıl planet uğrunda” mövzusunda Dünya dini liderlərinin qlobal Bakı Sammiti də məhz COP29 çərçivəsindədir. Dinlərin dəyərindən ətraf mühitin xeyrinə istifadə etmək olar. Dövlətlər, beynəlxalq təşkilatlar bu istiqamətdə bir çox addım atıb.

Dinin insanları birləşdirən inanc olduğunu vurğulayan Əl-Əzhər Şeyxinin müavini qeyd edib: “İqlim dəyişikliyi probleminin həlli istiqamətində birlikdə hərəkət etmək lazımdır. Bu, insan varlığının davamı üçün zəruridir. İslam dinində ətraf mühitə canlı kimi baxılır və hörmət olunur. Gələcək nəsillərin varlığı bu istiqamətdə görülən işlərdən asılıdır. Məqsədimiz iqlim dəyişikliyinə qarşı mübarizə aparmaq olmalıdır. Düşünürəm ki, maarifləndirmə bu sahədə olduqca önəmlidir və dinlər arasında əlaqə gücləndirilməlidir”.

Çıxış edən Avropa Ravvinləri Konfransının Daimi Komitəsinin üzvü, Baş ravvin İzhak Dayan isə deyib ki, bəşəriyyət nadir bir missiya ilə üz-üzədir: “Biz planetimizin qayğısına qalmalıyıq. Bizim rolumuz sadəcə yaşamaq deyil, həmçinin yaşatmaqdır. Bu, cavabdehlik hissidir. Biz planetimizi, təbii sərvətlərimizi məhv etməməliyik. Kifayət qədər düşünüb-daşınmasaq planetimizi gələcək nəsillərə təhlükəsiz şəkildə çatdıra bilməyəcəyik. Biz iqlim dəyişikliyinə ortaq bir məsuliyyət kimi baxmalıyıq. Bunun həllində həmrəylik göstərməliyik”.

İclasda digər çıxış edənlər də sammitin mövzusi ilə bağlı fikirlərini bildiriblər.

Daha sonra sammit işini plenar iclaslarla davam etdirib. İclasda “Dinlərin və inancların iqlim dəyişikliyi böhranına baxışı və onun planet, həyat və yaşam vasitələri üçün təsiri”, “Yaşıl gələcəyin təşviqində və iqlim dəyişikliyi ilə bağlı məlumatlılığın artırılmasında və onunla mübarizədə dini və inanc təşkilatlarının rolu”, “Dinlərarası və sivilizasiyalararası dialoq vasitəsilə iqlim dəyişikliyi ilə mübarizə”, “Silahlı münaqişələr, zorakılıq, ekosid və urbisid aktları ətraf mühitə zərər vurur və iqlim dəyişikliyi ilə qlobal mübarizəyə maneə yaradır” mövzuları ətrafında müzakirələr aparılıb.

***N.BAYRAMLI***

# YAP Mərkəzi Aparatında qanvermə aksiyası keçirilib



Noyabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının inzibati binasında qanvermə aksiyası keçirilib.

Aksiya YAP Mərkəzi Aparatı və Səhiyyə Nazirliyinin Respublika Qan Bankının birgə təşkilatçılığı ilə baş tutub. Qanvermə aksiyasına Respublika Qan Bankını təmsil edən tibbi heyət cəlb olunub.

Respublika Qan Bankının həkimi Günel Mehdiyeva bildirib ki, aksiyanın məqsədi talassemiya, irsi qan və digər xəstəliklərdən əziyyət çəkən insanlara yardım etməkdir.



Yeni Azərbaycan Partiyasının davamlı olaraq qanvermə aksiyası təşkil etdiyini xatırladan G.Mehdiyeva bu təşəbbüsün humanist xarakter daşıdığını qeyd edib: “Qanvermənin insan sağlamlığına bir çox faydaları var. Burada toplanan qanlar Respublika Qan Bankında müayinə olunacaq və aidiyyatı üzrə istifadə ediləcək. Belə bir xeyirxah təşəbbüsə görə partiyanın rəhbərliyinə, Mərkəzi Aparatına və əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk”.



Qeyd edək ki, aksiyada partiyanın Mərkəzi Aparatının əməkdaşları da daxil olmaqla 300-dən artıq YAP üzvü iştirak edib.

# Türk ailəsi yeni inkişaf mərhələsində

## Ən mühüm prioritetlər: İqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək...

Son bir neçə ildə beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutan Türk Dövlətləri Təşkilatı (TDT) regional müstəvidə aparıcı siyasi-iqtisadi aktor və vahid milli güc kimi tanınır. Dünya miqyasında ən önəmli geostrateji və geocoğrafi məkanlardan biri kimi qəbul olunan Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya regionunu özündə birləşdirən TDT yeni və müasir çağırışların ən real təcəssümü sayılır - o mənada ki, təşkilat yeni iqtisadi-siyasi münasibətlər sisteminin formalaşdığı, qlobal diqqət mərkəzinə düşən regionun fəal əməkdaşlıq platforması kimi çıxış edir.

Bəlli olduğu kimi bu gün, noyabrın 6-da Qırğızıstanın Bişkek şəhərində Türk Dövlətləri Təşkilatı (TDT) liderlərinin 11-ci Zirvə görüşü başlayır. Tədbirdən bir neçə gün öncə təşkilatın yaydığı məlumatda bildirilirdi ki, Türk Dövlətləri Təşkilatının Bişkekdə keçirilən sammiti "Türk dünyasının gücləndirilməsi: İqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək və hamı üçün təhlükəsizlik" şüarı altında gerçəkləşir. Qeyd olunub ki, TDT ölkələrinin liderləri iqtisadiyyat, ticarət, rəqəmsal transformasiya, nəqliyyat və təhlükəsizlik məsələlərini müzakirə edəcək, həmçinin təşkilatın əsas layihələri ilə bağlı qərarlar qəbul edəcək və müvafiq sənədlər imzalayacaqlar.

Bundan başqa, TDT-yə üzv olan ölkələrin liderlərinin regionda baş verən iqtisadi və siyasi prosesləri müzakirə edəcəkləri, türk dünyasının birliyi və inkişafının daha da möhkəmləndirilməsi üzrə tədbirlərlə bağlı fikir mübadiləsi aparacaqları gözlənilir. Sammitin sonunda təşkilata sədrlik Qazaxıstandan Qırğızıstana keçəcək. Tədbirin yekunları üzrə dövlət başçıları Bişkek Bəyannaməsini imzalayacaqlar.

Bundan əlavə, Bişkekdə liderlərin sammiti ərəfəsində gündəliyə daxil olan məsələlərin və dövlət başçıları tərəfindən imzalanacaq sənədlərin razılaşdırılması üçün təşkilata üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək.

## Bişkek sammiti yeni dövrün müzakirə masası kimi

### Naxçıvandan Bişkekə...

2024-cü il TDT üçün yaddaqalan bir tarixə çevrilməkdədir - bu il həm təşkilatın yaranmasının 15-ci ildönümü qeyd olunur, həm də təşkilat üzvləri bir müddət öncə Şuşada baş tutan qeyri-rəsmi Zirvə görüşündə birgə "Qarabağ Bəyaannaməsi"nə imza atıblar. Vurğulandığı kimi, bu il TDT-nin davamçısı olduğu Türk Dövlətləri Əməkdaşlıq Şurasının yaranmasının, Naxçıvan sazişinin imzalanmasının 15-ci ildönümüdür. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində imzalanan Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında qurulmuş olan beynəlxalq təşkilatdır. Özbəkistan 30 aprel 2018-ci ildə ovaxtkı TDƏŞ-ə qatılma niyyətinin olduğunu açıqlamış və 14 sentyabr 2019-cu ildə də Türk Şurasına üzv olmuşdu. 2021-ci ilin noyabrın 12-də Türkiyənin İstanbul şəhərində baş tutan Sammitdə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının Türk Dövlətləri Təşkilatı olaraq dəyişdirilməsinə qərar verilib. Şimali Kipr Türk Cümhuriyyəti, Macarıstan və Türkmənistan isə qurumda müşahidəçi dövlət statusunda çıxış edirlər. Üzv ölkələrin dövlət rəhbərləri ildə bir dəfə rəsmi, bir dəfə də qeyri-rəsmi olaraq müxtəlif şəhərlərdə toplanır və TDT-nin çağırışları, regional predmetlər, real siyasi vəziyyət müzakirə olunur. 2009-cu ildən bəri Zirvə görüşlərinin dördü Azərbaycanda (builki qeyri-rəsmi Şuşa zirvəsi də daxil olmaqla), dördü Türkiyədə, üçü Qazaxıstanda, ikisi Qırğızıstanda, biri isə Özbəkistanda keçirilib.

Bişkek sammitinə qədər təşkilata üzv dövlətlər bir neçə dəfə birgə toplantılar reallaşdıraraq bir sıra istiqamətlər üzrə müzakirələr aparıblar. Məsələn, oktyabrın 4-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin xarici işlər nazirlərinin müavinləri səviyyəsində çoxtərəfli siyasi məsləhətləşmələr keçirilib. Məsləhətləşmələr zamanı TDT dövlət başçılarının noyabrın 6-da Bişkekdə keçiriləcək 11-ci sammitinə hazırlıq məsələləri, o cümlədən regional və beynəlxalq gündəlikdəki cari məsələlər müzakirə edilib.

Oktyabrın 10-da isə İstanbulda Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın fintex assosiasiyaları arasında TDT-nin Fintex Alyansının yaradılması ilə bağlı anlaşma memorandumu imzalanıb. Sənəd maliyyə texnologiyalarının inkişafı, qanunvericilik və tənzimləmə, maliyyə inklüzivliyinin artırılması, startap ekosisteminin dəstəklənməsi, beynəlxalq ödənişlərin və köçürmələrin asanlaşdırılması, kibertəhlükəsizlik və bir sıra digər sahələrində daha sıx əməkdaşlıq, təcrübə mübadiləsi və birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur. Bu, TDT-nin Yaşıl Maliyyə və Mərkəzi Banklar Şurasının yaradılması təşəbbüsünün tərkib hissəsi hesab olunur.

Oktyabrın 18-də isə Bişkekdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrin iqtisadiyyat və ticarət nazirlərinin 13-cü



### Sammitöncəsi müzakirələr...

iclası baş tutub. İclasda Yaşıl Maliyyə və Mərkəzi Banklar Şurasının yaradılması təşəbbüsü irəli sürülüb. Tərəflərin yekdilliklə dəstəklədiyi digər təşəbbüs isə TDT ölkələri, eləcə də Macarıstanın da daxil olduğu - TURAN xüsusi iqtisadi zonasının yaradılması ilə bağlı olub. TDT üzvləri hər iki təşəbbüsün gerçəkləşməsi üçün milli səviyyədə zəruri addımların atılması, hüquqi-iqtisadi əsasların müəyyən edilməsi və vahid iqtisadi yol xəritəsinin müəyyənləşməsini vacib hesab etdiklərini bildirib.

Beləliklə iqtisadi inteqrasiya, davamlı inkişaf, rəqəmsal gələcək devizinə əsaslanan yeni Sammit öncəsi təşkilatın əməkdaşlıq kriteriyaları daha da açıq şəkildə ortaya qoyulur - müasir çağırışlar, inkişaf indeksləri, yeni perspektivlərin müzakirəsi TDT-nin uzunmüddətli inkişaf konsepsiyasının əsasını təşkil edən elementlər kimi çıxış edir.

### Mühüm prioritet - iqtisadi inteqrasiya

Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Azərbaycan, Türkiyənin və müşahidəçi qismində Türkmənistan, Macarıstan və ŞKTC-nin timsalında TDT inkişafının yeni mərhələsini formalaşdırıb. İndiyə qədər keçirilən sammitlər fərqli məsələlərin müzakirəsini özündə ehtiva edib - burada mədəni inteqrasiya, gömrük məsələlərinin müzakirəsi, ortaq dil məsələsinin həlli, iqtisadi tərədaşlığın gücləndirilməsi, paralel olaraq təhsil məsələsində inteqrasiyanın təşkili və bu kimi yeni dövrün ticari-iqtisadi, siyasi-humanitar mahiyyətini özündə əks etdirən zəruri istiqamətlər müzakirə predmeti olub. Bişkek sammitində önə çıxan məsələ Türk dünyasının gücləndirilməsi və bunun yollarıdır - təbii ki, burada iqtisadi inteqrasiya ön plandadır. XI sammitin bu kimi aktual məsələlərə toxunması səbəbsiz deyil - məlum olduğu kimi, Azərbaycanın son 4 ildə regionda yaratdığı siyasi-hərbi reallıqlar demək olar ki, bütövlükdə, TDT-ni əhatə edən Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya geocoğrafiyasında yeni ştrixlər formalaşdırb. Buraya təhlükəsizlik amilindən tutmuş yeni ticari münasibətlər sisteminin yaranmasına qədər həyati predmetlər daxildir. Azərbaycanın yaratdığı təhlükəsiz yol isə müasir dövrün yeni ticari aortası hesab edilir. Bu amil, Türk dünyasının iqtisadi potensialını bir neçə dəfə artırmaq gücünə malikdir. Son 4 ildə özünün yeni inkişaf mərhələsinə qədəm qoyan Türk birliyi qısa zamanda özünü təsdiq edib - yeni enerji siyasəti ilə qlobal enerji təhlükəsizliyi məsələsində əhəmiyyətli yer tutmaqla yanaşı, TDT həm də geocoğrafi üstünlüklərini iqtisadi dividendə çevirə bilib. Təbii ki, burada Azərbaycanın təşəbbüsü ilə reallaşan tranzit nəqliyyat-kommunikasiya xətləri xüsusi vurğulanmalıdır.

### Müdafiə və təhlükəsizlik meyarı yüksəlir...

İqtisadi inteqrasiya ilə yanaşı, müdafiə immunitetinin gücləndirilməsi də təşkilatın əsas hədəflərindən biri kimi ortaya çıxır. Ötən ilin noyabrında Astanada baş tutmuş X Astana Zirvəsi və bu ilin yayında keçirilmiş Şuşa Zirvəsi TDT-nin yeni mərhələ üçün inkişafının mühüm konsepsiyalarını müəyyənləşdirib. "Türk əsri" çağırışı altında keçirilən Astana Zirvəsində irəli sürülən təşəbbüslər olduqca mühüm məqamları əhatə edirdi - xüsusilə, Prezident İlham Əliyevin çıxışında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlığın daha da artırılmasına ehtiyacın olmasını qeyd etməsi yeni dövrdə Türk Dövlətləri Təşkilatı üçün mühüm perspektiv formalaşdırıb. Zirvə görüşündə çıxış edən dövlətimizin başçısı bildirmişdi ki, bu gün dünyanın müxtəlif bölgələrində beynəlxalq hüquq normaları kobudcasına pozulur. Müharibələr, qanlı münaqişələr alovlanır: "Belə olan halda, ilk növbədə, ölkələrin müdafiə potensialı təhlükəsizliyin əsas zəmanətinə çevrilir. Hesab edirəm ki, üzv ölkələr arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə əməkdaşlıq daha da artmalıdır".

Bu günün rakursunda TDT üzvü olan ölkələrə qarşı hər hansı real təhlükələr hiss edilməsə belə, əməkdaşlığın hərbi müdafiə sahəsi üzrə inkişaf etdirilməsi inteqrasiyanı daha da sürətləndirəcək. Hazırda bölgə dövlətlərinin əksəriyyətinin fərqli regional hərbi bloklarda təmsil olunması da buna mane olmaz - bu mənada, TDT formatında həm NATO, həm də KTMT üzvü olan dövlətlər, Azərbaycanın timsalında Qoşulmama Hərəkatına uğurla liderlik etmiş ölkə təmsil olunur. Təbii ki, bu da mane olacaq faktor sayılmamalıdır. Xatırlayırıqsa, təşkilatın mülki müdafiə sahəsində əməkdaşlıq perspektivləri ilə bağlı aktiv müzakirələr davamlı şəkildə aparılır və bu, qarşıdakı dövr üçün yeni inteqrasiya sahələrini aktuallaşdırmaq imkanındadır. Təbii ki, ortada mühüm bir nümunə mövcuddur - Azərbaycan ilə Türkiyə arasında imzalanan "Şuşa Bəyannaməsi" yeni dövr üçün TDT-nin hərbi əməkdaşlıq doktrinası rolunda çıxış edə bilər. Şuşa Bəyannaməsinin yeni dövr üçün Türk hərbi əməkdaşlığının əsas istinad nöqtəsi seçilməsi isə əsaslı və arqumentlidir - müqavilə iki dövlət arasında imzalansa da, orada əksini tapan məsələlər vacibliyinə və yeni çağırışlar nöqteyi-nəzərdən kollektiv müdafiə mexanizminin yaradılmasında da iştirak etmək qabiliyyətindədir. Sənəddə beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq, siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişafı, xüsusilə də hər iki ölkənin milli və birgə təhlükəsizliyi ilə əlaqədar çox vacib məsələlər əks olunub - ən əsası, Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Beləliklə, TDT üzvü olan ölkələr də özlərinin müdafiə imkanlarının inteqrasiyasını məhz bu kriteriyalar üzrə inkişaf etdirə bilərlər.

### Qarabağ bəyannaməsi - hərtərəfli əməkdaşlıq üçün yeni zəmin...

Bişkek sammitindən öncə Şuşada reallaşan qeyri-rəsmi sammit təşkilatın inkişaf trayektoriyasında özünəməxsus iz buraxıb - Şuşa Zirvəsində imzalanan Qarabağ Bəyannaməsi isə təşkilatın strateji yol xəritəsi sayıla bilər. Sənəd Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu bir daha ortaya qoyur. Bəyannamədə Türk xalqlarının qitə miqyasında töhfələri, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında tarix boyu oynadığı rol ən yüksək şəkildə dəyərləndirilir. Sənəddə strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyi qeyd edilir. Bundan başqa, Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyi ortaya qoyulur. Paralel olaraq bəyannamədə üzv dövlətlərin milli qanunvericiliyinə uyğun olaraq müdafiə sənayesi sahəsində birgə fəaliyyətin davam etdirilməsi niyyətləri bir daha vurğulanır və bu xüsusda lazımi tədbirlərin görülməsi üçün üzv dövlətlərin aidiyyəti qurumlarına tapşırıq verilməsi əksini tapır. Beləliklə, bu bəyannamə TDT-nin inkişaf perspektivi ilə yanaşı, istiqamətlərini də müəyyənləşdirir. Bu isə Bişkek Zirvəsindən gözləntiləri daha da artırır - 15 illik yaranış yubileyinin ardından baş tutacaq ilk sammit Türk dünyasının yeni srtateji hədəflərlə və yeni strateji inkişaf konsepsiyaları ilə gələcək perspektivinə işıq tutacaq.

*Pərviz SADAYOĞLU*

# Heydər Əliyev Fondunun Vatikanla genişlənən əlaqələri

Azərbaycanın milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasətinin uğurla həyata keçirilməsinə, ölkəmizin həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasına Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu davamlı töhfələr verir. Elə bugünlərdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti kardinal Klaudio Qucerotti ilə görüşüb. Görüşdə Azərbaycan və Vatikan arasında mövcud əlaqələr, Heydər Əliyev Fondu ilə əməkdaşlıq çərçivəsində layihələr müzakirə olunub.

### Heydər Əliyev Fondunun Vatikanda reallaşdırdığı çoxsaylı layihələr

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkəmizin hüdudlarından kənarda multikulturalizmin təşviqində fəal şəkildə iştirak edir. Fondun dəstəyi ilə ayrı-ayrı ölkələrdə digər mədəniyyətlərə aid tarixi abidələrin bərpası buna nümunədir. Fond tərəfindən belə layihələr həmçinin Vatikanda da uğurla həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin və Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsinin Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilməsi mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası işlərinin aparılması da yüksək dəyərləndirilir. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan "Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası" layihəsi də olduqca önəmlidir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell'ordine Piano) layiq görülüb. O, bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Cari ilin sentyabr ayında isə Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti kardinal Fernando Vergez Alzaqa imzalayıblar.

Qeyd edək ki, Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. 2025-ci ildə Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İli çərçivəsində 30 milyondan çox katolik zəvvarın bu kilsəni ziyarət etməsi gözlənilir. Bərpa işləri, ilk növbədə, 2025-ci ildə keçiriləcək Müqəddəs Yubiley İli zamanı ziyarətçilərin bu dini ocağa təhlükəsiz girişinin təmin edilməsi məqsədilə aparılır.

Heydər Əliyev Fondunun tarixi əhəmiyyət daşıyan dünya şöhrətli abidələrin bərpasında yaxından iştirak etməsi Vatikanda böyük minnətdarlıqla qarşılanır. Yuxarıda bəhs olunan görüşdə Heydər Əliyev Fondunun Vatikanda katakombaların bərpası, Vatikan muzeyi və Apostol kitabxanası ilə sıx əməkdaşlığı, arxiv əlyazmalarının rəqəmsallaşdırılması, Vatikan arxeoloqlarının Azərbaycana tarixi və dini abidələrin bərpası məqsədilə tanışlıq səfəri və təcrübə mübadiləsi xüsusi qeyd olunub, gələcəkdə yeni layihələrin icrasının vacibliyi vurğulanıb.

Kardinal Qucerotti bu tədbirləri yüksək qiymətləndirərək Azərbaycan hökuməti və Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda yeni katolik kilsəsinin tikintisinin ölkəmizin multikultural siyasətinin bariz nümunəsi olduğunu bildirib.

### Azərbaycan çoxkonfessiyalı ölkədir

Çoxkonfessiyalı ölkə olan Azərbaycanda İslam adət-ənənələrinə böyük hörmət bəslənildiyi kimi, burada yaşayan digər xalqların da milli-mənəvi dəyərlərinin qorunmasına dövlət tərəfindən böyük qayğı göstərilir. Tolerantlıq, müxtəlif xalqların nümayəndələrinin bir-birlərinə yüksək səviyyədə dözümlü münasibət bəsləmələri respublikamızda tarixdən gələn ənənədir. Tarixin lap qədim dövrlərindən xalqımızın yaratdığı mədəniyyət nümunələrində, klassiklərimizin əsərlərində, bir qayda olaraq, başqa mədəniyyətlərə, humanizm, həmrəylik kimi bəşəri dəyərlərə yüksək hörmət ifadə edilib. Azərbaycan ərazisindəki tarixi abidələr də respublikamızın mədəni müxtəlifliyini aydın şəkildə nümayiş etdirir. Multikulturalizm, etnik və dini müxtəliflik bu gün də ölkəmizin qürur doğuran reallığıdır. Azərbaycan elə bir məkandır ki, burada milli-dini-irqi müxtəliflik insanlar arasında fərq yaradan, kimlərəsə üstünlük verən və yaxud kimləri isə alçaldan amil kimi çıxış etmir. Əksinə, burada tolerantlıq, milli-dini-irqi müxtəliflik cəmiyyətin əsas və üstün dəyəri kimi təqdim olunur. Azərbaycan öz üstünlüyünü ölkənin çoxmədəniyyətli və çoxkonfessiyalı olmasında görür. Beləliklə, Avropada multikulturalizmə qarşı təzyiqlərin artdığı bir vaxtda Azərbaycan özünün müsbət reallıqları ilə dünyaya tolerantlıq, dözümlülük, birgəyaşayış nümunəsi təqdim edir.




Görüşdə respublikamızın bu reallığı yüksək dəyərləndirilib. Qonaq dünyada dini zəmində baş verən münaqişələrin genişlənməsi fonunda Azərbaycan hökumətinin həyata keçirdiyi multikulturalizm siyasəti, ölkədə müxtəlif dinlərin sülh şəraitində yaşaması, dini etiqad azadlığının sülhə ən böyük töhfə olduğunu vurğulayıb.

### Gələcəkdə reallaşdırılacaq birgə layihələr

Həm Azərbaycan, həm də Müqəddəs Taxt-Tac gələcəkdə də xoş mərama əsaslanan sıx əməkdaşlığı davam etdirmək niyyətindədirlər. Bu istək bəhs olunan görüşdə bir daha ifadə olunub. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov fondun prezidenti Mehriban Əliyevanın Vatikanla münasibətlərə hər zaman xüsusi önəm verdiyini deyib və gələcəkdə də bu əməkdaşlığın inkişaf etdiriləcəyinə əminliyini ifadə edib. Vatikan şəhər dövləti üzrə qubernatorluğu ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında həyata keçiriləcək bərpa işləri ilə bağlı imzalanmış əməkdaşlıq müqaviləsi tərəflər arasındakı sıx əməkdaşlığın göstəricisi kimi qeyd olunub.

Müqəddəs Taxt-Tacın nümayəndəsi Heydər Əliyev Fondu ilə gələcək layihələr sırasında Vatikanda Azərbaycanın mədəniyyət günlərinin keçirilməsi, sərgi və konsert proqramının təşkil edilməsi və müxtəlif sahələrdə mütəxəssislər arasında qarşılıqlı mübadilə aparılması təklifini də irəli sürüb.

Görüş zamanı Klaudio Qucerottiyə noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına hazırlıq işləri barədə də məlumat verilib. Qonaq COP29 ərəfəsində "Dünya dinləri yaşıl planet naminə" devizi altında keçiriləcək Dini Liderlərin Qlobal Sammitinin dinlərarası münasibətlərin daha da inkişafına və beynəlxalq konfransın uğuruna töhfə verəcəyinə əminliyini bildirib.

*Mübariz FEYİZLİ*

# Keçmişimiz və bu günümüzlə bağlı olan ideologiya...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə hazırlanmışdır**

Hər birimiz harada yaşamağımızdan asılı olmayaraq, Azərbaycanın və azərbaycanlıların ümumi maraqlarını müdafiə etməyə borcluyuq. Bunun üçün istinad etdiyimiz də məhz azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq bizə doğru, düzgün istiqamət verən ideyadır və bu ideyanı rəhbər tutaraq, bizə məxsus olan dəyərlərə sahib çıxa, milli dəyərlərimizdən çıxış edə, onları qoruya bilirik.

Sadalanan məqamlar təsdiq edir ki, azərbaycançılıq ideyası təkcə respublikamızın, ölkəmizin hüdudlarında yaşayan azərbaycanlıların ideyası deyil. Azərbaycançılıq ideyası bütövlükdə dünyanın istənilən ölkəsində yaşayan, məskunlaşan soydaşlarımızın ideyasıdır. Xüsusilə qeyd etmək yerinə düşərdi ki, milli ideyamız dünya azərbaycanlılarının təşkilatlanması istənilən istiqamətdə, xüsusilə də mədəni və mənəvi əlaqələrinin inkişaf etdirilməsi baxımından əvəzsiz hesab olunur.

**Azərbaycançılıq ilk növbədə ailədən gəlməlidir**

Mövzu ətrafında fikirlərini “Yeni Azərbaycan”la bölüşən millət vəkili İlham Məmmədov bildirib ki, azərbaycançılığın dərin kökləri və təməlləri millətimizin tarixi keçmişi və bu günü ilə sıx bağlıdır: “Vətənpərvərlik və dövlətçilik kimi təməllərə söykənən azərbaycançılıq ideyasının təbliği nisbətən yeni yaranan anlayış olsa da, Azərbaycanın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, dəyərlərini qorumağa xidmət edir. Milli ideyamız artıq insanların şüurunda formalaşan ictimai dəyərlərdən hesab olunur. Buna görə də azərbaycançılıq ideyası ön planda durur və azərbaycanlıları, eləcə də Azərbaycanın mənafelərini müdafiə edən insanları birləşdirən ideya olaraq qəbul edilir.



Xalqımız milli kimliyini dərk etdiyi zamandan bəri azərbaycançılıq müxtəlif enişli-yoxuşlu yollardan, tarixi dövrlərdən keçərək inkişaf edib, zənginləşib. Hansı etnik kökə mənsub olmasından asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarını tək Vətən, tək dövlət, tək bayraq, tək millət ətrafında bərabər şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ilə dövlətimizin və millətimizin bu günü və gələcəyi sıx bağlıdır. Azərbaycanda etnik kimliyindən asılı olmayaraq, bütün vətəndaşlar azərbaycanlıdır. Ona görə də azərbaycançılıq ilk növbədə ailədən, uşaq bağçasından, məktəbdən və cəmiyyətdən gəlməlidir”.

**Bəşəri dəyərlər milli ideologiyamızın özəyidir...**

Deputat qeyd edib ki, ölkədə mövcud olan multikultural və tolerant mühit bu təbliğatı asanlaşdırır və bu təbliğatın ümummilli kontekstdə realizə olunmasını şərtləndirir: “Azərbaycançılıq ideologiyası bizim ümumi sosial identifikasiyamız və ortaq dəyərlərimizi müəyyənləşdirir. Bu da çox vacib məsələdir. Azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəyliyinə, xalqın vahid bir ideya ətrafında mənəvi birliyinə nail olunmasında ölkə başçısının xüsusi xidmətləri var. Məhz Prezident İlham Əliyev sayəsində milli-mənəvi və bəşəri dəyərlər artıq azərbaycançılıq ideologiyasının özəyini, onun əsas təməl prinsiplərini təşkil etməkdədir. Azərbaycançılıq ümumbəşəri dəyərlərdən yetərincə bəhrələnməklə bərabər, öz milli mentallığını qoruyub saxlamaqdadır. Bu ideya həm Azərbaycanın sərhədləri daxilində, həm də ölkəmizin hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlı üçün əsas baza mənbəyidir. Bizi uzun yüzilliklər boyu vahid bir əqidə bayrağı altında birləşdirən, ən çətin məqamlarda belə xalqımızın həmrəyliyinin təminatçısına çevrilən məhz azərbaycançılıq ideyası olub. Əgər xalqımız əsl azərbaycançılıq ideyası ilə silahlanmasaydı, öz istiqlalına qovuşa bilməz, həyatın bütün sahələrində bugünkü qədər ali zirvələri fəth edə bilməzdi”.

**Azərbaycançılıqla ərazi bütövlüyümüzə nail olduq**

Millət vəkilinin sözlərinə görə, etiraf etmək lazımdır ki, 30 ilə yaxın müddətdə ən ağrılı problemimiz olan Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli, məhz bütün azərbaycanlıların birliyi ilə reallaşdı: “Belə bir birlik isə tarixin bütün zehni və mənəvi təcrübələrini özündə əks etdirən milli ideologiya-azərbaycançılıq ideyası sayəsində reallaşdı. Məhz azərbaycançılıq ideyasına sadiq qalaraq, torpaqlarımızın bütövlüyü, ərazilərimizin işğaldan azad edilməsi uğrunda birləşməklə işğala son qoyuldu. Ən qısa zamanda düşmən üzərində qələbənin əldə edilməsinə də məhz bu ideyaya sadiqlik, milli birlik sayəsində nail olundu. Dünyanın harasında yaşamasından asılı olmayaraq, vətən sevgisi ilə ürəyi döyünən hər bir azərbaycanlının milli maraqlarımızın təmin olunmasına necə xidmət etdiyinin əyani şəkildə şahidi olduq. Bütün dünya azərbaycanlılarının ölkəmizin haqq səsinə dəstək verməsinin gücümüzə güc qatdığına bir daha əmin olduq”.

*Yeganə BAYRAMOVA*

# Bələdiyyələr yenidən qurulur...

## Vergi və maliyyə fəaliyyəti elektronlaşdırılır

Ölkəmizdə yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin strukturunun yenidən formalaşması və fəaliyyətinin müasir meyarlar əsasında qurulması və elektron idarətmənin təmin edilməsi istiqamətində islahatların aparılması nəzərdə tutulur. Bu qurumların yenidən təşkili və maliyyə-təsərrüfat, vergi, audit məsələləri üzrə fəaliyyətinə nəzarətin tamamilə rəqəmsallaşdırılması ilə bağlı bir sıra hüquqi-institusional addımlar atılacaq. İlk növbədə, hazırda mövcud olan bələdiyyələrin əksəriyyəti ləğv edilərək daha iri özünüidarətmə qurumlarında birləşdiriləcək. Hazırda “Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında” və “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanunlarda nəzərdə tutulan əlavə və dəyişikliklər müzakirə edilir. Sözügedən qanun layihələri təsdiq edildikdən sonra bələdiyyələrin sayı 3 dəfəyə yaxın azaldılaraq 1606-dan 684-ə düşəcək.

### Hər rayonda təxminən 10-12 bələdiyyə fəaliyyət göstərəcək...

Struktur dəyişikliyi nəticəsində 2025-ci ildən təxminən mövcud olan 1200 bələdiyyə öz əvvəlki hüquqi statusunu da itirmiş olacaq. Bununla da hər rayonda 10-12 bələdiyyə fəaliyyət göstərəcək. Yeni strukturizasiyadan sonra bələdiyyələrin iqtisadi-maliyyə fəaliyyətinin elektronlaşdırılması, bütün əməliyyatlarının yalnız elektron resurslar üzərindən aparılması təmin olunacaq. Yerli özünüidarəetmə orqanlarının əsas gəlir mənbəyi olan torpaq və əmlak vergisi üzrə yığımları, digər xidmət haqları yalnız nağdsız qaydada həyata keçiriləcək. Bu məqsədlə “Nağdsız hesablaşmalar haqqında” qanunda da dəyişikliklər nəzərdə tutulur. Həmin qanuna təklif edilən dəyişikliklər hazırda parlamentin müvafiq komitəsində müzakirə edilir və yaxın günlərdə plenar iclasa çıxarılacaq. Qanunun 3.4.1-ci maddəsinə əsasən, ölkədə vergilərin yığılması yalnız nağdsız qaydada həyata keçirilməlidir. Bu maddə indiyə qədər bələdiyyələrə faktiki olaraq şamil edilmirdi və bələdiyyələr qanunvericilikdə bəzi boşluqlardan sui-istifadə edərək topladıqları vergilərin uçotunu gizlədirdi.

### Bütün bələdiyyə yığımları nağdsızlaşdırılır

Əslində hökumət bələdiyyələrin vergi yığımı potensialının artırılması və bu qurumların topladığı vergilərin büdcəyə köçürülməsi imkanlarının yaxşılaşdırılması, eləcə də bu sahədə maliyyə şəffaflığının gücləndirilməsi məqsədilə bir neçə il əvvəl elektron ödəniş infrastrukturunu yaradıb. Yerli özünüidarəetmə orqanlarının “Hökumət Ödəniş Portalı”na (HÖP) inteqrasiyası üçün Dövlət Vergi Xidməti və Mərkəzi Bank tərəfindən, resurs imkanları təmin edilib. Vergi orqanı tərəfindən yaradılmış Bələdiyyə Vergi İnformasiya Sisteminin (BVİS) imkanları artırılıb və sistem tam onlayn rejimdə HÖP infrastrukturuna inteqrasiya olunub. Ancaq bələdiyyələrin əksəriyyəti bu sistemə qoşulmayıb və avtomatlaşdırılmış vergi informasiya sistemindən kənarda qalmaqla vergi uçotunu faktiki gizlədib. Ölkədəki 1606 bələdiyyənin təxminən 30 faizi vergi ödəyiciləri və onların cari öhdəlikləri haqqında məlumatlar mərkəzi informasiya sisteminə daxil edib. Xüsusilə də bölgələrdə, uçqar rayonlarda bələdiyyələrin HÖP-ə inteqrasiyası təmin edilməyib və onlar nağdsız ödəniş kanallarından kənarda qalıb. Bələdiyyələr bunu həmin ərazilərdə internet imkanlarının yaxşı olmaması, sistem xətaları ilə əsaslandırmağa çalışsa da, bir çox hallarda bunun məqsədli şəkildə edildiyi istisna deyil. Nəticədə bələdiyyələrin 60 faizindən çoxunun vergi uçotu və hesabatlılığı qaranlıq olaraq qalır.

### Yerli vergi yığımları üçün potensiallar böyükdür

Aparılmış qiymətləndirmələr göstərir ki, ölkə üzrə bələdiyyələrin illik vergi yığımları portfeli mövcud potensialının 10-15 faizinə bərabərdir. Belə ki, ötən il ərzində fiziki şəxslərin torpaq və əmlak vergisi üzrə yerli büdcələrə toplanmış vəsaitin həcmi 5-6 milyon manatdan çox deyil. Halbuki bu rəqəmin 15-20 milyon manat civarında olması ehtimal edilir.

Bütün bu amillər bələdiyyələrin yığdığı vəsaitlərin yalnız nağdsız qaydada aparılmasını və bütün əməliyyatların şəffaflıq şəraitində təmin edilməsini labüdləşdirir. Qeyd edək ki, “Yerli vergilər və ödənişlər haqqında” qanunun 12.3-cü maddəsinə əsasən, bələdiyyələrin yerli vergi və ödənişlərin yığılması və istifadəsi sahəsində fəaliyyəti tam aşkarlıq şəraitində həyata keçirilməlidir. Həmin qanunun 11.4-cü bəndində isə vergi və ödənişlərin ödənilməsi bankları, poçt rabitəsinin milli operatoru, habelə mövcud nağdsız ödəmə vasitələri ilə həyata keçirilməsi nəzərdə tutulub. Ona görə də, “Nağdsız hesablaşmalar haqqında” qanunda dəyişikliklər edilməklə bələdiyyə vergilərinin tamamilə nağdsızlaşdırılması təmin olunacaq.




### Bələdiyyələrin yarıdan çoxu audit yoxlamasından gizlənib

Yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə nəzarətin artırılması məqsədilə digər hüquqi sənədə - “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanuna da dəyişikliklərin edilməsi nəzərdə tutulur. Bu bələdiyyələrin maliyyə-audit sahəsində yol verdiyi pozuntuları aradan qaldırmaq məqsədi güdür. Qeyd edək ki, Auditorlar Palatasının bələdiyyələri 2023-cü ilə dair apardığı audit yoxlaması zamanı xeyli maliyyə pozuntuları aşkar edilib. Palata 750-yə bələdiyyədə yoxlama aparmağa nail olub ki, bu da cəmi bələdiyyələrin 45 faizi deməkdir. Yerli özünüidarəetmə orqanlarının 800-dən çoxu və ya 55 faizi müxtəlif vasitələrlərlə audit yoxlamasının aparılmasından yayınıb. Bu isə bələdiyyələrin maliyyə fəaliyyətindəki nöqsanlara yol verildiyinə, hesabatlılığın olmadığına dəlalət edir. Ona görə də bələdiyyələrin bu sahədə fəaliyyətinə nəzarətin artırılması və elektron resurslara inteqrasiyası əsas şərtlərdən biri kimi müəyyənləşəcək. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” qanuna dəyişikliklərə əsasən, bələdiyyə fəaliyyəti ilə əlaqədar bütün əməliyyatların, hesablaşmaların informasiya sistemində əks olunması nəzərdə tutulur.

Beləliklə, yuxarıda sadaladığımız qanunlarda nəzərdə tutulan dəyişikliklər bələdiyyə büdcəsinin formalaşmasının və icrasının elektronlaşdırılmasına, elektron ödəniş üsullarının istifadə etməklə nağdsız qaydada həyata keçirilməsinə, bununla da şəffaflığın təmin olunmasına, yerli büdcənin icrasının və vəsaitlərdən istifadənin səmərəliliyinin artırılmasına səbəb olacaq.

# “OPEC+” neft tədarükünü azaldır

**“OPEC+” alyansına daxil olan 8 ölkə - Səudiyyə Ərəbistanı, Rusiya, İraq, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Küveyt, Qazaxıstan, Əlcəzair və Oman noyabrın 3-də könüllü olaraq neft hasilatının azaldılması ilə bağlı 2 ay əvvəl verilmiş qərarın müddətinin daha bir ay uzadılması barədə yekdil razılığa gəlib. Onlar neft qiymətlərinin aşağı düşməsi tendensiyasını nəzərə alaraq dekabrın sonuna qədər aşağı hasilat dəhlizinin saxlanılacağını bəyan edib. Qərara əsasən, əvvəlki aylarda olduğu kimi alyans üzvləri bazara gündəlik 2,2 milyon barel az həcmində neft tədarük edəcək. Ümumilikdə, gündəlik qlobal neft tədarükünün (104 milyon barel) təxminən 42 faizi OPEC+ ölkələrinin payına düşür ki, xam neftin böyük hissəsi alyansın həmin 8 ölkəsinə məxsusdur. Səkkizlik ölkələrinin müxtəlif vaxtlarda qiymət riskləri yarandığı zaman tələbatın azaldılması kursunu yeniləməsi qiymətlərə də təsir edir. Məhz bunun nəticəsidir ki, alyansın mövcud qərarından cəmi bir gün sonra dünya birjalarında neftin bahalaşması müşahidə edilib. Belə ki, noyabrın 4-də Londonun “InterContinental Exchange Futures” birjasında “Brent” markalı neftin bir barelinin qiyməti 1,17 dollar artaraq 74,27 dollara yüksəlib. Nyu-Yorkun “NYMEX” birjasında isə “Light” markalı neftin bir barelinin qiyməti 1,21 dollar artaraq 70,7 dollar təşkil edib.**

### Neft bazarı üçün optimal qiymət 75-80 dollar hesab edilir

“OPEC+” alyansının bu qərarını Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) və müttəfiqləri də anlayışla qarşılayıb. Həmin ölkələri də son bir ayda daim dəyişən qiymət əmsalları narahat etdiyindən azaldıcı nəql siyasət maraqlarına uyğundur. Çünki xam neftə qlobal tələbin azalması ilə bağlı narahatlıqlar fonunda son həftələrdə “qara qızıl”ın qiymətləri aşağıya doğru tendensiya nümayiş etdirməsi təchizatçıların heç birinə sərf etmir.

Qeyd edək ki, son aylarda qlobal bazarlarda xam neftə olan tələb azalmaqda davam edir. Buna müxtəlif ölkələrdə iqtisadi fəallığın azalması, o cümlədən ABŞ və Avropa İttifaqında sənaye və enerji sektorunda işgüzarlığın zəifləməsi, qlobal bazarın ən nəhəng istehlakçısı olan Çində gözləniləndən daha az xam neft tələbinin qeydə alınması, bərpa olunan enerjiyə keçidin sürətlənməsi də digər faktorlar təsir göstərməkdədir. Beynəlxalq Enerji Agentliyinin (IEA) gözləntilərinə görə, Avropa ölkələrində, o cümlədən əsas iqtisadi güc olan Almaniyada neft tələbi sutkada 100 min barelə yaxın azalıb, ABŞ-da istehsal fəaliyyəti cari ilin ötən aylarında ardıcıl olaraq aşağı düşüb. Bu tendensiyanın 2024-cü ilin son rübündə və cari ilin ilk rübündə də davam edəcəyi gözlənilir. Beynəlxalq Valyuta Fondunun və qlobal enerji agentliklərinin proqnozlarına görə, dünya iqtisadiyyatında yavaşlama tələbin azalmasını təşviq edəcək. Bu isə orta qiymət əmsalının 70 dollar çərçivəsində qalmasına səbəb olacaq.

Bu meyilləri nəzərə alan “OPEC+” və OPEC üzvləri bazara əlavə neft göndərməyi məqsədəuyğun saymır. Əlavə neft tədarükü bazarda izafi enerji həcmləri yaratmaqla, indiki sabit qiymətlərin ritmini daha da poza bilər. Kartel ölkələrinin enerji analitikləri hesab edirlər ki, bazarda həssas olan tələbin qaldığı bir dövrdə OPEC-in bazara çoxlu neft çıxarmaq ehtimalı bazar əhvalına çox ciddi şəkildə təsir edərdi, əksinə, hasilatı azaltmaqla qlobal bazarı müəyyən qədər “sıxmaq” mümkündür ki, bu da qiymətlərin artmasına gətirib çıxarır. Kartel ölkələri 75-80 dollar qiymət dəhlizini optimist və bazar üçün sərfedici hesab edir.




### Azərbaycan alyansın qərarını dəstəkləyir

“OPEC+” alyansının mövcud siyasi xətti Azərbaycan üçün də mühüm əhəmiyyət daşıyır. Bu neft ailəsinin üzvü olan ölkəmiz indiyə qədər hasilat və nəql kvotası ilə bağlı qərarları həmişə dəstəkləyib. 2023-cü və 2024-cü ilin ötən aylarında keçirilən iclasda ölkəmiz “OPEC+” qrupunun razılaşdırılmış “Əməkdaşlıq Bəyannaməsi”nə qoşulub. Həmin bəyannamə “OPEC+” ölkələrində mövcud xam neft istehsal səviyyəsinin sabit saxlanılması və ya azaldılmasını nəzərdə tutur və ölkələrin günlük nəql kvotalarını müəyyənləşdirir. Alyansın qərarına əsasən, Azərbaycanın gündəlik kvotası 550 min barrel həcmində müəyyən edilib. Bu, ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilə bilər. Ümumiyyətlə, respublikamız istər OPEC-in, istərsə də “OPEC+”un qəbul etdiyi qərarlara hörmətlə yanaşaraq məsuliyyətli təchizatçı kimi kvotanın azaldılması barədə öhdəliklərini tam yerinə yetirib.

“OPEC+” ölkələri dekabrın sonunda növbəti toplantı planlaşdırır ki, bu, alyans ölkələrinin istehsal gücünün qiymətləndirilməsi əsasında 2025-ci il üçün kvotaları müəyyən edəcək. Bu zaman neftin azaldılıb-artırılmayacağı əsasında hasilatın həcmləri nizamlanacaq. Əgər qiymətlərdə kəskin enişlərin başvermə tendensiyası müşahidə olunarsa, risklər nəzərə alınaraq hasilatın azaldılmasına qərar verilə bilər, bazarın qiymət çərçivəsi dayanıqlı qaldığı halda sabit kvota və ya azaldılmaların olması da mümkündür.

### “OPEC+” ölkələri ilə “yaşıl enerji” əməkdaşlığı...

Qlobal enerji bazarının nəbzini müəyyən edən təchizatçılardan biri kimi OPEC+ qrupunun siyasətində nəzərə çarpan mühüm dəyişikliklərdən biri müttəfiqləri qeyri-neft resurslarına irihəcmli sərmayə qoymağa təşviq edən addımlardır. Belə ki, bu təşkilatın son dövrlərdə “yaşıl enerji” üzrə layihələrdə xüsusi fəallığı daha çox sezilir. Xüsusilə də BƏƏ və Səudiyyə Ərəbistanı alternativ enerjiyə - “yaşıl enerji”yə keçiddə daha ambisiyalıdır və təşəbbüskarlıq göstərir. BƏƏ-nin “Masdar”, Səudiyyə Ərəbistanının isə “ACWA Power” şirkətləri bərpa olunan enerji sektoruna böyük sərmayələr qoymaqla faktiki olaraq yaxın illərdə “yaşıl enerji” tədarükçüsü kimi qlobal bazarın əsas payçılarından birinə çevrilə bilərlər.

Hər iki ölkə ilə sıx əməkdaşlıq edən Azərbaycan da enerjinin yeni mənbələrinin hasilatı və tədarükündə fəallıq edir. “Masdar” və “ACWA Power” şirkətləri ilə imzalanmış sazişlər ölkəmizin qlobal bazarın əsas tələbatlarından birinə çevrilən alternativ yanacaq mənbələrinin nəqlində də rolunu artıracaq.

*ELBRUS*

# Moldova Aİ "yolunda"...

## Kişineunu inteqrasiya prosesində nələr gözləyir?

### İqtisadi disbalans Aİ-ni fikrindən daşındıracaqmı?

Moldovada baş tutan referendumun nəticələri rəsmi Kişineunun Avropa İttifaqı yolunu "təsdiqlədi". Ümumi seçicilərin 50,72 faizinin iştirak etdiyi səsvermədə 50,35 faiz lehinə, 49,65 faiz isə əleyhinə olmaqla 0,7 faizlik rəy fərqi ilə Aİ üzvlüyü üçün inteqrasiya prosesinə "hə" deyildi. Amma bu proses o qədər də asan deyil - bir sıra dövlətlərin namizəd statusu aldıqdan sonra illərlə növbəti prosedurları "gözləməsi" presedenti hər kəsə yaxşı məlumdur. Bu nöqteyi -nəzərdən Moldovanın da "qapı arxasında" nə qədər gözləyəcəyi qaranlıqdır...

### Aİ üzvü olmaq üçün...

Ümumiyyətlə, Aİ-nin tamhüquqlu üzvü olmaq üçün dövlətlər 9 prinsipi özündə ehtiva edən prosedurdan keçməlidir:

- Ölkə üzv olmaq üçün Şuraya (Aİ-yə üzv dövlətlər) müraciət edir;

-Komissiya müraciətlə bağlı öz rəyini təqdim edir;

- Aİ-yə Üzv Dövlətlər yekdilliklə ölkəyə namizəd statusunun verilməsi barədə qərar qəbul edirlər;

- Ölkə tərəfindən şərtlər yerinə yetirildikdən sonra bütün Üzv Dövlətlərin razılığı ilə üzvlüyə dair danışıqlara başlanır;

- Komissiya danışıqlar çərçivəsinin layihəsini təklif edir və bu çərçivə Üzv Dövlətlər ilə razılaşdırılır;

- Qruplar və bölmələr üzrə strukturlaşdırılmış danışıqlar zamanı ölkə Aİ-nin qanun və standartlarının tətbiqinə hazırlaşır. Aİ-yə Üzv Dövlətlər yekdilliklə bütün tələblərin yerinə yetirildiyini təsdiq etməlidirlər;

- Bütün sahələr üzrə danışıqlar başa çatdıqdan sonra Komissiya həmin ölkənin Üzv Dövlət olmağa hazırlığına dair Rəyini təqdim edir;

- Bu Rəyə əsaslanaraq Aİ-yə Üzv Dövlətlər yekdilliklə danışıqlar prosesinin başa çatdırılmasına dair qərar verirlər. Avropa Parlamenti də öz razılığını verməlidir;

- Bütün Aİ-yə Üzv Dövlətlər və namizəd ölkə bu ölkənin Aİ-yə üzvlüyünü təsdiq edən Üzvlük müqaviləsini imzalayır və ratifikasiya edirlər.

Beləliklə, bu prosedurları tam şəkildə reallaşdıran ölkələr Avropa İttifaqının tamhüquqlu üzvü kimi tanınır. Moldova isə bu prosedurların hələ demək olar ki, əvvəlindədir. Növbəti prosedurların hansı zamanda və hansı şəraitdə reallaşma ehtimalını isə yalnız yaşayıb görmək mümkündür...

### Moldovanı "həvəslə" gözləmirlər...

Moldovanın Qərbə inteqrasiya yolu seçməsi isə onun 30 ildən artıq əməkdaşlıq etdiyi platformanı tərk etməsi anlamına gəlir. Başqa sözlə, Moldova Aİ-yə daxil olduğu təqdirdə MDB (müstəqil Dövlətlər Birliyi) çərçivəsindəki tamhüquqlu üzvlükdən, Aİİ-nin (Avrasiya İqtisadi İttifaqı) isə müşahidəçi qismdəki təmsilçiliyindən imtina etməli olacaq. Düzdür, bu prosesə artıq müəyyən bir zamandır ki, start verilib. Moldova tərəfi MDB-dən çıxmaqla bağlı fəaliyyətə başlayacağını bəyan edir.

Rəsmi statistik rəqəmlərə əsaslansaq, yeni inkişaf yolu seçdiyini bəyan edən Moldovanın iqtisadi durumu Avropa İttifaqı ilə adekvat deyil - istər Beynəlxlaq Valyuta Fondunun, istər Dünya Bankının, Birləşmiş Millətlər Təşkilatının ÜDM-in göstəricisinə görə təqdim etdiyi cədvəllərdə Moldova olduqca aşağı sıralarda qərar tutub. Bu mənada, Aİ-nin hazırki ağır iqtisadi durumda Moldovanı öz sıralarına qatmaq "həvəsi" bir az inandırıcı görünmür. Hətta bəzi siyasi-iqtisadi ekspertlər Moldovanın Aİ-yə qəbul edilməsini birlik üçün səhv qərar sayır - bu ölkənin iqtisadi durumunu göz önünə alaraq, Kişineuya ayrılmalı olan "kredit və dəstəyi"n miqdarı ilə bağlı fantastik rəqəmlər səsləndirirlər.

Paralel olaraq Moldovanın MDB-ni tərk etməsi, özünə yeni iqtisadi əməkdaşlıq məkanı formalaşdırması da asan proses deyil. Diqqət yetirsək, illərə söykənən oturuşmuş iqtisadi əlaqələri birdən-birə yeni inteqrasiya ilə dəyişmək Moldova kimi bir ölkə üçün olduqca çətin görünür. Siyasi müstəvidə "yenilikləri"n qəbulu ola bilsin ki, daha asan görünür. Amma iqtisadi və ya hərbi müdafiə sferasında bu proses o qədər də asan olmayacaq. Adaptasiya dövrü Moldovanı böyük imtahanlarla qarşılaşdıracaq ki, bu da qaçılmazdır...

### Ticarət dövriyyəsi ildən-ilə azalır...

Faktlara diqqət yetirək:

- 2023-cü ildə Moldovanın ixracı 4048,6 milyon ABŞ dolları təşkil edib ki, bu da 2022-ci ilə nisbətən 6,5 faiz azdır.

- 2024-cü ilin ilk səkkiz ayında ixrac 2338,1 milyon ABŞ dolları təşkil edib ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz azdır.

- Avropa Birliyi ilə ticarət dövriyyəsi 2024-cü ilin ilk səkkiz ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,7 faiz azdır.

Bu rəqəmlər Moldovanın iqtisadi potensialının, ixrac qabiliyyətinin ildən-ilə geriyə getdiyini göstərir. Eyni paralelləri qonşu ölkələr ilə də aparmaq olar - mənzərə dəyişməyəcək. MDB ölkələri ilə də iqtisadi dövriyyə ildən-ilə geriyə gedir. Beləliklə, Moldovanın hazırki dövrdə MDB-dən çıxaraq Avropaya üz tutması Qərbə nə iqtisadi, nə siyasi, nə də bir başqa üstünlük vəd etmir. Başqa sözlə, rəqəmlər göstərir ki, Moldovanı heç kim Aİ-də ürəkaçıqlığı ilə qarşılamayacaq...



### MDB-dən çıxmaq üçün... öhdəliklər yerinə yetirilməlidir

Ölkələrin MDB-dən çıxması proseduruna gəldikdə, bu da asan iş deyil - proses 1993-cü il yanvarın 22-də Minskdə keçirilən Dövlət Başçıları Şurasının iclasında qəbul edilmiş Müstəqil Dövlətlər Birliyinin Nizamnaməsinə əsaslanır. Nizamnamənin 9-cu maddəsinə uyğun olaraq, dövlətin Birlikdən çıxmaq hüququ var. Amma əvvəlcə bu qərar ölkə daxilində razılaşdırılmalı və hakimiyyətin bütün qolları tərəfindən təsdiqlənməlidir. Daha sonra MDB üzvü olan dövlət bəyanat verməli, münasibətlərin faktiki kəsilməsinə 12 ay qalmış MDB İcraiyyə Komitəsinə təqdim etməlidir. Bundan sonra MDB İcraiyyə Komitəsi dövlətin qurumdan çıxması proseduru ilə bağlı zəruri tədbirləri həyata keçirməyə başlayır.

MDB Nizamnaməsinə görə, bu müddət ərzində Birliyi tərk etmək istəyən dövlət MDB-də iştirakı dövründə yaranmış öhdəlikləri yerinə yetirməlidir. Birlikdən çıxmaq istəyən dövlət üçün Nizamnamədə başqa heç bir məhdudiyyət yoxdur...

### Sülhməramlılar silah-sursat da qoruyur...

Moldovada həm də Rusiya sülhməramlıları xidmət göstərir. Rusiya sülhməramlıları 1992-ci il iyulun 21-də Rusiya Federasiyası və Moldova prezidentləri tərəfindən imzalanmış Moldovanın Dnestryanı bölgəsində silahlı münaqişənin sülh yolu ilə nizamlanması prinsipləri haqqında Sazişə uyğun olaraq 1992-ci il iyulun 29-dan döyüş zonasına daxil edilib. Hazırda onlar Moldovanın, "Dnestryanının" və Ukraynanın bir qrup hərbi müşahidəçi ilə birlikdə Dnestrboyu təhlükəsizlik ayırma zonasında sülhü qoruyurlar. Bu əməliyyatın səmərəliliyi nəticəsində ötən 32 ildə münaqişənin təhlükəsizlik zonasında bir dəfə də olsun insidentə rast gəlinməyib.

Bölgədə min nəfərə yaxın Rusiya Qoşunlarının Əməliyyat Qrupuna aid əsgər və zabit fəaliyyət göstərir. Onlar sülhməramlı fəaliyyətlə yanaşı, həm də sovet qoşunlarının Şərqi Avropa ölkələrindən çıxarılmasından sonra əraziyə gətrilmiş 20 min tondan çox sursatın saxlanıldığı anbarlarları mühafizə edirlər. Həmin sursatların utilizasiyası edilməsi prosesi 2004-cü ildə Dnestr çayının iki sahili arasında münasibətlərin kəskinləşməsindən sonra dayandırılıb. Rəsmi Kişineu müəyyən mənada MDB-ni təmsil edən sülhməramlıların ərazidən çıxarılmasını istəyir - Moldova bu qüvvələrin beynəlxalq mandat altında mülki missiya ilə əvəzlənməsini təklif edir. Qarşı tərəf isə bildirir ki, 1992-ci ildən başlanan, mindən çox insanın öldüyü, on minlərlə insanın yaralandığı və qaçqın düşdüyü silahlı münaqişənin qarşısını mülki missiya ala bilməz - bu səbəbdən də mövcud sülhməramlıların orada saxlanılması davam edir.

### Qarşıda çətin mərhələlər dayanır...

Görünən budur ki, Moldovanın müəyyənləşdirdiyi "Avropa yolu" heç də qısa zamanda və ya asan şəkildə reallaşmayacaq. Referendumda "Qərb yolu"na səs verənlərin cəmisi 0,7 faiz üstünlük təşkil etməsi isə qarşıdakı illər üçün daha fərqli siyasi proseslər də vəd edir. Çünki iqtisadi cəhətdən İttifaq ilə eyni tərəziyə daxil olmaq gücü olmayan Moldovanın Avropaya inteqrasiya prosesində mühüm mərhələlər adlaması gərəkir. Hazırki situasiyanın yaratdığı mənzərə ilə Moldovaya "qucaq açan" Qərbin də fikrindən daşınmayacağına inam azdır - minimum onlar "adətlərinə xilaf" çıxmayacaqlar: illərlə söz verə - verə gün yubadacaqlar...

*P.İSMAYILOV*

# Fransa tarixinin ən pis dönəmi

## Makronun daxili və xarici siyasətdə don kixotluğu Yelisey Sarayının nüfuzunu kəskin şəkildə aşağı salıb, ölkəni qarşıdurmalar səhnəsinə çevirib

**Fransa böyük tarixi olan bir ölkədir. Burada zaman-zaman baş verən inqilablar sayəsində dünya üçün yeni bir başlanğıc açılıb, demokratiya, hüquq bərabərliyi, insan və vətəndaş azadlığı ilə bağlı çoxlu sayda ilklərə imza atılıb. Ancaq hazırda prezident Emmanuel Makronun idarəçiliyi dönəmində Fransanın yenilikçi ənənələrindən əsər-əlamət yoxdur, ölkə bütün sahələrdə sürətlə geriyə dönüş edir. Cəmiyyətdə mənəvi deqradasiya yaşanır, ölkə iqtisadi geriləmə, xarici borcun ümumi daxili məhsulu getdikcə daha çox dərəcə üstələməsi, sosial bərabərsizliyin artması zolağına düşüb və buradan çıxa bilmir. Bir sözlə, Fransa Makronun idarəçiliyi dönəmində tarixinin ən çətin illərini yaşayır. Buna səbəb də E.Makronun daxili və xarici siyasətdə sərgilədiyi don kixotluğudur. O, proqnozlaşdırıla bilinməyən, ölkənin potensialı və reallıqları fövqündə dayanan bir yelbeyin siyasət aparır ki, bu da cəmiyyət üçün, dövlət üçün arzuolunmaz bəlli nəticələrə gətirib çıxarır.**

### Emanuelin quyunun dibinə düşən reytinqi

2017-ci ildə populist vədlərlə və bir sıra dairələrin layihəsi qismində Yelisey Sarayının sahibinə çevrilən E.Makronun reytinqi antirekord həddə enərək quyunun dibinə düşüb. Bu barədə məlumat "Verian-Epoka" tədqiqat mərkəzinin "Figaro" nəşri üçün apardığı araşdırmanın nəticələrində əksini tapıb.

Araşdırmaya görə, Fransa liderinin populyarlıq səviyyəsi daha beş faiz azalaraq 17 faizə enib. Bu, Makronun prezident seçildiyi 2017-ci ildən bəri ən aşağı göstəricidir. Eyni zamanda, respondentlərin 78 faizi prezidentin fəaliyyətindən narazı olduqlarını bildirib.

Sağçı "Milli Birlik" partiyasının rəhbəri Jordan Bardella və onun parlamentdəki fraksiyasının lideri Marin Le Pen populyarlıq səviyyəsinə görə Makronu qabaqlayaraq reytinqdə müvafiq olaraq birinci və ikinci yerləri bölüşüb.

Fransa liderinin təmsil olunduğu partiyada fəalların sayı il ərzində təxminən dörd dəfə azalaraq 35 mindən 8,5 minə düşüb. Növbədənkənar parlament seçkilərindən sonrakı bir ay ərzində isə Makronun siyasəti ilə razılaşmayan dörd deputat prezident fraksiyasını tərk edib.

Qeyd edək ki, bir müddət öncə, E.Makron Fransa parlamentinə və Avropa Parlamentinə seçkilərdə partiyasının aşağı nəticələrinə baxmayaraq, prezident postunu tərk etmək niyyətində olmadığını və 2027-ci ilin mayında keçiriləcək seçkilərədək vəzifəsində qalacağını bildirib. Bu, əslində, Makron tərəfindən ölkə qanunvericiliyinin pozulması və hakimiyyətin zorla qəsb edilməsi anlamına gəlir. Belədə sual yaranır: Makron haqqı çatmadığı postunu nə üçün tərk etmir? Sualın cavabı bəllidir: O, şəxsi iradəsini qanunvericiliyin fövqündə qoyur və ölkənin, xalqın aşıbdaşan problemlərini vecinə almır, biganəlik göstərir, özünü heç nəyi görməyən və heç nəyi eşitməyən birisi kimi aparır.





### "Narkomanlar hökuməti"

Makronun idarəçiliyi dönəmində Fransada narkomanlıq heç vaxt olmadığı qədər geniş intişar tapıb. Hətta vəziyyət o dərəcədə kritikdir ki, Makronun qanunvericiliyi pozmaqla Baş nazir təyin etdiyi M.Barnyenin qurduğu kabinetin ünvanına "narkomanlar hökuməti" kimi ağır ittihamlar səsləndirilir. Narkotik məsələsini ekoloq-senator Melani Vogel qaldırıb. "Nazirlərin, deputatların, senatorların, bələdiyyə başçılarının qan testini aparacağıq, Brüno Rötayo (daxili işlər naziri) narkotik istehlakının onun hökumətində də olduğunu aşkar edəcək", - deyə M.Vogel BFM televiziyasında deyib.

Bu gün kokainə alternativ kimi hesab olunan "3-MMC" Fransada getdikcə daha çox istehlak edilən və ucuz narkotikdir. O cümlədən ölkədə narkomanlıq zəminində iğtişaşların artması müşahidə edilir. Məsələn, Puatye şəhərində yüzlərlə insanın iştirakı ilə kütləvi dava yaşanıb, yaralananlar var. Fransa daxili işlər naziri Brüno Rötayo hadisədən dərhal sonra atışmanın narkotik alveri ilə bağlı olduğunu bildirib. Bu açıqlama ilə daxili işlər naziri əslində ölkənin acınacaqlı durumuna, necə deyərlər, öz möhrünü vurub: İndi Makron Fransasına açıq silahlı narkotik hesablaşmaları da əlavə olunub. Yarıtmaz siyasət nəticəsində Fransa narkotik alverçiləri üçün tranzit ölkəyə çevrilir. Təkcə 2024-cü ilin aprelində Le Boulou rayonunda soyuducu yük maşınlarından birində gömrük işçiləri 770 kq kannabis tozu aşkar ediblər. Qaçaqmalın qeyri-qanuni bazardakı məbləği 5,5 milyon avrodan çox qiymətləndirilib.

"The Times" ın Fransa polisindən əldə etdiyi məlumata görə, "Paris yeni Marsel olur", çünki "yeni bandalar bəzi ətraf rayonlarda narkobiznesi ələ keçirməyə çalışırlar, həbsdən azad edilmiş bir sıra banda liderləri öz ərazilərində rəqib narkotik alverçiləri aşkar ediblər".

### Notr-Dam: Makron-kilsə ixtilafları...

Prezident Makrona nifrət, onun siyasətindən narazılıq Fransanın istisnasız olaraq bütün regionlarında və cəmiyyətin bütün təbəqələrində özünü kəskin şəkildə biruzə verir. İctimai görüşlərdə dövlət başçısının sifətinə şapalaq vurulması, lax yumurta atəşinə tutulması, ünvanına təhqiramiz ifadələr söylənilməsi bunun əyani təzahürüdür. İndiyədək Makron çoxbilmişlik edərək cəmiyyətin inanclı kəsimini özünə dayaq sandığına dair mesajlar verirdi. Ancaq Makronun bu hiyləsi də baş tutmayıb. Belə ki, artıq dini kəsim də onun yanında yer almadığını bildirir. Uzun sürən təmir-bərpadan sonra açılışına hazırlıq görülən Notr-Dam kilsəsi ətrafında yaşanan qalmaqal Makron-kilsə ixtilaflarının dərin kök atmasından xəbər verir. Qətiyyətlə deyə bilərik ki, Makron dini kəsimi hakimiyyəti üçün dayaq hesab etməkdə böyük yanlışlığa yol verib. Reallıq odur ki, cəmiyyətin digər təbəqələri kimi, inanclı insanlar da yarıtmaz prezidentdən üz döndəriblər. Beləliklə, Fransanın simvollarından biri kimi qəbul edilmiş Notr-Damla bağlı nə baş verir?

İndiyədək gizli şəkildə yaşanan Makron-kilsə ixtilafları dövlət başçısının tarixi dini abidənin açılış tədbirində çıxış etmək niyyəti bəlli olduqdan sonra açıq müstəviyə keçib. Belə ki, prezidentin Notr-Dam kilsəsində çıxış etmək qərarı etirazlarla qarşılanıb və sərt tənqidlərə tuş gəlib.

RFI radiosunun məlumatına görə, Paris arxiyepiskopu Loran Ulrix "bu, dünyəvi dövlətin lideri üçün qeyri-adi addımdır" deyib. O, açılış mərasimində lentin kəsilə biləcəyini əlavə edib və prezidentin kilsənin qarşısında deyil, məhz içəridə salamlama nitqi söyləyəcəyini vurğulayıb. Mərasimdə, həmçinin yanğın zamanı tozdan zərər çəkmiş, "tam sökülərək təmizlənmiş və işlək vəziyyətə gətirilmiş" məşhur kilsə orqanı musiqisi səslənəcək.

Dekabrın 7-də kilsənin açılışı münasibətilə prezidentin çıxış qərarı bəzi din xadimlərinin narazılığına səbəb olub. Fransız ictimaiyyətinin nümayəndələri sosial şəbəkələrdə bununla bağlı etirazlarını bildiriblər və indiki dövlət başçısına qədər bu məbəddə heç bir siyasi xadimin çıxış etmədiyini vurğulayıblar.

General Şarl de Qollun nəvəsi Pyer de Qoll "X" sosial şəbəkəsində bildirib ki, "Fransa kralları da daxil olmaqla heç kim müqəddəs məbədə müdaxilə etməyə cəsarət göstərməyib - nə Allaha, nə Fransaya, nə də öz xalqına inanmayan bir insandan başqa".

### "Qisas" müstəmləkə ölkələrindən alınır

Bu gün ayrı-ayrı müstəmləkə ölkələrində "Rədd ol, Fransa!" şüarı getdikcə daha tez-tez və daha ucadan eşidilir. Bu da onun nəticəsidir ki, Makron daxili siyasətdəki uğursuzluqların qisasını bir növ müstəmləkə ərazilərinin aborigen sakinlərindən almağa çalışır. Sanki Fransanın bütün uğursuzluqlarının baiskarları müstəmləkə ölkələridir. Makron iqtidarı konkret olaraq Martinikada, Qvadelupada, Yeni Kaledoniyada terror törətməkdən, yerli xalqların milli kimliyinə hücum etməkdən çəkinmir. Dinc etirazçılara təzyiq göstərilməsi, əlavə hərbiləşdirilmiş qüvvələr cəlb olunması, komendant saatının tətbiqi, elektrik enerjisinin dayandırılması Martinikada, Yeni Kaledoniyada uzun sürən kütləvi etirazlara səbəb olub. Yeni Kaledoniyada etirazlar bədnam "konstitusiya islahatları" zəminində başlayıb. Martinika sakinləri isə ərzaq məhsullarının yüksək qiymətləri ilə üzləşirlər. Eyni zamanda, orta gəlir xeyli aşağıdır. Ada əhalisinin təxminən 30 faizi yoxsulluq həddindən aşağı yaşayır ki, bu da Fransanın Avropa hissəsindəki göstəricidən iki dəfə çoxdur. Martinika və Qvadelupa sakinləri müstəmləkə keçmişinin nəticələrini dərk edir və həyat qiymətlərinin yüksək olmasına qarşı fəal mübarizə aparırlar.

*Mübariz ABDULLAYEV*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# 98 il əvvəl...

## Azərbaycan radiosu yayıma başladı

“Danışır Bakı!”-1926-cı ilin noyabr ayında paytaxt küçələrində və meydanlarında qurulmuş reproduktorlardan eşidilən səs... 98 il əvvəl - 1926-cı il noyabrın 6-da Azərbaycanda ilk dəfə radio verilişlərinin yayımına başlanıb. Elə bu tarixdən radio insanların dostuna, sirdaşına, yol yoldaşına çevrildi.

Radionun fəaliyyətə başlaması ölkəmizin media tarixində həm də teleradionun yaranması kimi qəbul olunur. Radio və televiziyanın fəaliyyətə başlamasının maraqlı bir tarixçəsi var. “Danışır Bakı!” səsinə yalnız Bakıda deyil, paytaxtın ətraf yaşayış məntəqələrində də vətəndaşların qulaq asmaları üçün imkanlar yaradılmışdı. Həmin illər üçün bu, xalqın həyatında çox böyük bir yenilik hesab olunurdu. Radionun ilk azərbaycanlı kişi diktoru Azərbaycan Politexnik İnstitutunun tələbəsi İsmayıl Əlibəyov, ilk azərbaycanlı qadın diktoru isə Azərbaycan Dövlət Darülfünunun hüquq-iqtisad fakültəsinin tələbəsi Raya İmanzadə olub. 1927-ci ilin payızında İsmayıl Əlibəyov baş diktor vəzifəsinə təyin edilib.

Azərbaycan radiosunun inkişaf etdiyi sonrakı mərhələdə isə Fatma Cabbarova, Züleyxa Hacıyeva, Gültəkin Cabbarlı, Aydın Qaradağlı, Nizami Məmmədov, Sabutay Quliyev, Ramiz Mustafayev kimi peşəkar diktorlar ölkəmizin radio məkanına öz zəngin töhfələrini veriblər. Bakı Televiziya Mərkəzinin tikintisinə isə 1953-cü ildə başlanılıb. 3 il sonra isə Bakıda televiziya yayımı üçün polad bloklardan yığılmış ilk 180 metrlik qüllə qurulub.

1956-cı il fevralın 14-də Azərbaycan Televiziyası fəaliyyətə başlayıb. 1973-cü ildən başlayaraq paytaxtda televiziya verilişləri rəngli təsvirlərlə yayımlanıb. Respublikada yayımlanan verilişlərin sayını artırmaq üçün yeni Teleqüllənin tikintisinə isə 1981-ci ildə start verilib. 1996-cı ildə Teleqüllə istismara verilib. 2008-ci ildə isə Teleqüllə kompleksində əsaslı yenidənqurma işləri həyata keçirilməyə başlanılıb.

Görülən tədbirlər nəticəsində kompleks ən qabaqcıl rabitə avadanlıqları ilə təchiz olunub. Ümumi hündürlüyü 310 metr, çəkisi 40 min ton olan Teleqüllə dəniz səviyyəsindən 136 metr hündürlükdə yerləşir. Kompleksin beton hissəsi 200 metr, metal hissəsi isə 110 metrdir. Qüllənin üzərində milli ornamentli 4 şəbəkə yerləşir ki, bunların hər biri bir qütbə istiqamətlənib.

Hazırda ölkə ərazisində radio proqramları orta dalğa (AM radio 526,5-1606,5kHs) və UQD dalğa diapazonundakı tezliklərdə (FM radio 88 MHs-108 MHs), televiziya proqramları isə PAL, D/K standartında və III, IV və V televiziya diapazonlarında yayımlanır. Qeyd edək ki, rəqəmli televiziya yayım şəbəkəsi DVB-T standartı üzrə qurulub.

Orta dalğalarda “Azərbaycan” radiosu və müxtəlif dillərdə yayımlanan “Xaricə yayım” radio proqramları yayımlanır. Orta dalğa radio yayımlarının texnoloji xüsusiyyətlərindən asılı olaraq, bu dalğalarda yayımlanan proqramlar nəinki ölkə daxilində, hətta xarici ölkələrdə də qəbul oluna bilir.

Ölkəmizdə radio və televiziya sahəsinin inkişafı hər zaman dövlətin diqqət mərkəzində saxlanılmaqdadır. Bu sahədə inkişafın təmin edilməsi istiqamətində hər zaman lazımi tədbirlər görülməkdədir. Əlamətdar gün münasibətilə radio və televiziya sahəsində fəaliyyət göstərən həmkarlarımızı təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzu edirik!

*Yeganə BAYRAMOVA*

# Uğura gedən yol



## “Azəri Calgary Stars” Kanadada I yerə yüksəldi

2024-cü il noyabrın 2-də Kanadanın Kalqari şəhərində, Avropa Mədəniyyət Cəmiyyətinin təşkilatçılığı ilə “Avropa xalq rəqsləri” müsabiqəsi baş tutub.

İştirakçılar sırasında Bolqarıstan, Ruminiya, Yunanıstan, Polşa, Ukrayna, Xorvatiya, Azərbaycan və digər Avropa ölkələri öz nümayəndələri ilə milli rəqslərini ifa edərək çıxış ediblər. Çox zəngin ənənələrə malik olan Azərbaycan rəqs mədəniyyəti bu dəfə də dünya arenasında öz əzəmətini nümayiş etdirərək “Avropa xalq rəqsləri” rəqs müsabiqəsində “Azəri Calgary Stars” 1-ci yerə layiq görülərək qızıl medal qazanıb. Sevindirici hal isə ölkəmizi təmsil edən 12-17 yaş kateqoriya arası rəqqasların hamısının Kanadada yaşayan azərbaycanlılardan ibarət olmasıdır. Rəqslərin ərsəyə gəlməsində, Azərbaycan Xoreoqrafiya Akademiyasının məzunu, “Türksoy Özəl Ödül” müsabiqəsinin laureatı və 2023-cü ildə Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən ilin ən fəal gənci adına layiq görülən Lalə Aslanurdur.

Azərbaycanın milli rəqs mədəniyyətini, dünyaya tanıdılması və inkişafı Lalə xanım üçün ən qabaqcıl prinsiplərindən sayılır.

Müsabiqəyə hazırlıq 4 ay öncə başlamış və Kanadada yaşayan azərbaycanlılar Lalə Aslanurun proyekti olan “Mənimlə rəqs et” proqramı çərçivəsində onlayn dərslər keçirilib. İlk turda milli rəqsimiz “Qaval rəqsi” nağara musiqi alətinin əsrarəngiz ritmləri ilə milli və baletin sintezini birləşdirərək münsiflər heyətinin böyük marağına səbəb olub.

2-ci turda dahi bəstəkarımız Üzeyir Hacıbəylinin “Koroğlu” operasından musiqiyə quruluş verərək möhtəşəm rəqs təqdim olunub.

Müsabiqədə Azərbaycan nümayəndə heyətinin möhtəşəm performansı münsiflər heyəti tərəfindən həmvətənlərimizin 1-ci yerə layiq görülməsi ilə yekunlaşıb.

Səhnədə Azərbaycan bayrağının dalğalanması və qızıl medallar qazanaraq 1-ci yerə yüksəlməsi rəqs mədəniyyətimizin tarixinə qızıl hərflərlə yazılacaq.

*Havar Şəfiyeva*




# “Bakcell” “Birbank” istifadəçilərinə xüsusi üstünlüklər verən “Birinci” tarifini təqdim edir

İnnovasiya və sürət lideri “Bakcell” ölkənin ilk rəqəmsal bankı “Birbank” ilə əməkdaşlıq çərçivəsində yeni “Birinci” tarif paketini təqdim edir.

Abunəçilər “Birbank” mobil tətbiqinə “Bakcell” nömrəsi əlavə etməklə “Birinci” tarifinə qoşula, onu idarə edə və dərhal “Trendyol”, “Umico”, “Birbank” və “M10” kimi platformalarda xüsusi üstünlüklərdən yararlana bilərlər. “Birinci” tarifi daxilində “Bakcell” müştərilərinə ölkədaxili zənglər üçün dəqiqələr, əsas internet balansı, sosial şəbəkələr üçün əlavə internet balansı təqdim olunur. Bundan əlavə, tarifə qoşulan abunəçilər “Trendyol”da alış-veriş zamanı ayda 2 dəfə 10% endirim və ödənişsiz “Umico Premium” abunəliyi əldə edəcəklər.

Eyni zamanda, müştərilər “Birbank” kartları ilə əməliyyatlar və “m10”la QR ödənişlər zamanı əlavə keşbek qazanacaqlar. “Birinci” tarifinin başlanğıc qiyməti 6.9 AZN-dir.

Qeyd edək ki, “Bakcell” abunəçiləri “Birinci” tarifinə yalnız “Birbank” mobil tətbiqi vasitəsilə qoşula bilərlər. Tarif paketi ilə bağlı ətraflı məlumatı “Bakcell” və “Kapital Bank”ın rəsmi saytlarından və ya sosial şəbəkə hesablarından əldə etmək olar.

Gələcəyə hədəflənən yeni brend strategiyası ilə “Bakcell” ölkəmizdə abunəçilərə innovativ xidmət və məhsullar təqdim edir. Şirkət qarşıdakı dövrdə bir sıra yeni məhsulları abunəçilərinin ixtiyarına verəcək.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## İdman

### Azərbaycanın veteran cüdoçusu 12 qat dünya çempionu olub



Azərbaycanın veteran cüdoçusu Fərhad Rəcəbli Amerika Birləşmiş Ştatlarının Las-Veqas şəhərində keçirilən dünya çempionatında qızıl medal qazanıb.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, M8 yaş kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində çıxış edən idmançı bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu qələbə ilə F.Rəcəbli usta cüdoçular arasında 12 qat dünya çempionu olub.

90 kiloqram çəkidə mübarizə aparan Nazim Əliyev (M7) isə yarışı 5-ci pillədə tamamlayıb.

Qeyd edək ki, mundiala noyabrın 7-də yekun vurulacaq.

### Milli Basketbol Assosiasiyasında ikinci dəfə tarixi geridönüş qeydə alınıb

ABŞ-ın Milli Basketbol Assosiasiyasında (NBA) “Los-Anceles Klippers” və “San-Antonio Spörs” komandaları arasında keçirilmiş oyunda ikinci dəfə tarixi hadisə reallaşıb

AZƏRTAC OPTA-ya istinadən xəbər verir ki, ilk dövrədə rəqibindən 26 xal geridə olan Los-Anceles təmsilçisi geridönüş edərək yekunda 113:104 hesablı qələbəyə sevinib. Bu, NBA tarixində birinci dövrədən sonra 26 və ya daha çox xal fərqi ilə uduzan komandanın matçı öz xeyrinə dəyişməsi ilə nəticələnən ikinci hadisə olub.

Sonuncu dəfə bu hal 1967-ci il yanvarın 8-də “Nyu-York Niks” - “Los-Anceles Leykers” komandaları arasında matçda baş verib.

### Azərbaycan millisinin baş məşqçisi: Bakıya əliboş qayıtmamağa və azarkeşləri sevindirməyə çalışacağıq



Çalışacağıq ki, maksimum dərəcədə yaxşı çıxış edib Bakıya əliboş qayıtmayaq və azarkeşləri sevindirək.

Bunu “Report”a açıqlamasında Azərbaycanın U-19 millisinin baş məşqçisi Elxan Abdullayev Avropa çempionatının seçmə mərhələsinə hazırlıqlarla bağlı danışarkən deyib.

Mütəxəssis komandada itkilər olduğunu vurğulayıb:

“Sabahdan hazırlığa başlayırıq. İkisi qapıçı olmaqla ümumilikdə 20 nəfər dəvət etmişik. Düşünürəm ki, bu gün üçün ən güclü futbolçulardır. Düzdür, itkilər də var. Bir neçə nəfəri zədə səbəbindən heyətə cəlb edə bilməmişik”.

E.Abdullayev Avropa çempionatının seçmə mərhələsində qarşılaşacaqları bütün rəqiblərlə bağlı məlumatlı olduqlarını söyləyib:

“Bütün rəqiblərlə bağlı məlumatımız var. Çox fərqli və güclü komandalardır. Bu səbəbdən hər oyun üçün fərqli taktika və strategiyadan yararlanacağıq. Komandamızda çatışmazlıqlar çoxdur. 2-3 gün ərzində bunları düzəltmək çətindir. Çalışacağıq ki, maksimum dərəcədə yaxşı çıxış edib Bakıya əliboş qayıtmayaq və azarkeşləri sevindirək”.

Qeyd edək ki, Avropa çempionatının seçmə mərhələsində VII qrupda yer alan Elxan Abdullayevin baş məşqçisi olduğu yığma Kişinyovda İslandiya, İrlandiya və Moldovanın müvafiq yaş qrupundan ibarət komandaları ilə qarşılaşacaq.

Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4809
Sifariş: 2579
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Elbrus Cəfərli